Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

12 aprel 2019-cu il № 25-28 (9307) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

ASCO-da rəhbər şəxslər üçün "Konstruktiv tənqid" mövzusunda təlim təşkil olunub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) rəhbər işçiləri üçün "Konstruktiv tənqid" mövzusunda təlim keçirilib. Təlimdə ASCO-nun İdarə heyəti və departament rəhbərləri iştirak ediblər.

Seminarı beynəlxalq səviyyəli biznes-təlimçi Rəşad Bayramov aparıb.

Səh. 2

"Dəniz nəqliyyatının inkişaf perspektivləri"

Azərbaycan Dövlət Dəniz Akademiyasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tələbə, magistrant və gənc tədqiqatçıların "Dəniz nəqliyyatının inkişaf perspektivləri" adlı elmi-texniki konfransı keçirilib.

Səh. 3

Biz 10 milyon olduq!

Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisə baş verib, əhalinin sayı 10 milyon nəfərə çatıb.

2019-cu il aprelin 6-da saat 03:30-da Bakı şəhərində Rauf Həsənovun və Nigar Ocaqovanın (Ağdərə rayonu sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər) ailəsində ölkənin 10 milyonuncu sakini dünyaya gəlib.

Səh. 4

CADMATİC proqram təminatı ilə bağlı bütün suallar ətraflı cavablandırılıb

Azərbaycan Dövlət Dəniz Akademiyasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və CADMATİC şirkəti ilə birgə beynəlxalq seminar keçirilib. Seminarın mövzusu dünyada nüfuzlu proqram təminatçısı olan CADMATİC şirkətinin gəmiqayırmada geniş istifadə edilən proqramının təqdimatı olub.

Səh. 5

"Cəlil Məmmədquluzadə" tankeri yenidən yükdaşımalara cəlb edilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyat Donanmasına məxsus 8 min tonluq "Cəlil Məmmədquluzadə" tankeri əsaslı təmir edilib.

Səh. 6

Gəmi təmirçiləri arasında futbol turniri keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Bibiheybət" Gəmi Təmiri Zavoduna daxil olan bölmələrin futbol komandaları arasında keçirilən turnir başa çatıb.

Səh. 8

H.X.Əsədovun Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Heydər Xanış oğlu Əsədov Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2019-cu il.

ADDA-nın yeni rektoru kollektivə təqdim olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 aprel 2019-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru vəzifəsinə təyin olunmuş Heydər Əsədov bu ali təhsil müəssisəsinin kollektivinə təqdim edilib.

Tədbirdə əvvəlcə ADDA-nın mərhum rektoru Çingiz Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra ASCO-nun sədri Rauf Vəliyev dövlət başçısı İlham Əliyevin dəniz nəqliyyatının, o cümlədən dənizçilik təhsilinin inkişafına göstərdiyi böyük diqqət və qayğıdan, Akademiyanın tarixindən, yaşatdığı ənənələrdən, son illər əldə etdiyi nailiyyətlərdən danışıb. Heydər Əsədovu təbrik edən sədr yeni vəzifəsində və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

ASCO-nun sədri bildirib ki, Heydər Əsədova hər zaman böyük etimad göstərilib, ölkənin müxtəlif vacib qurum və strukturlarında yüksək vəzifələr tutub. Rauf Vəliyev əminliyini ifadə edib ki, ADDA elmi potensialını Heydər Əsədovun zəngin təcrübəsi hesabına gücləndirməkdə davam edəcək, kadr hazırlığının səviyyəsini daha da yüksəldəcək.

Azərbaycan Dövlət Dəniz Akademiyasının yeni rektoru Heydər Əsədov ona göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə öz təşəkkürünü bildirib və bu etimadı doğrultmaq üçün çalışacağını deyib.

Əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin təxminən 83-85 faizinin səsini qazana bilər

Fransanın "Opinion Way" şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusu İlham Əliyevin yenə də öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq etdi

Azərbaycan Respublikasındakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə "Opinion Way" şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində geniş rəy sorğusu keçirilib.

Rəy sorğusunun nəticələrini aprelin 9-da "Opinion Way" şirkətinin rəhbəri Bruno Janbar Beynəlxalq Mətbuat Mərkəzində keçirdiyi mətbuat konfransında elan edib.

Diqqətə çatdırılıb ki, sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Bütün bunlar ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər olub. Məhz elə bunun nəticəsidir ki, sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualına respondentlərin 85,1 faizi bütövlükdə müsbət cavab verib. Bu sualı onların yalnız 6,8 faizi "mənfi", 8,1 faizi "bilmirəm" kimi cavablandırıb.

"Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib, onlardan 64 faizi bu istiqamətdə hökumətin fəaliyyətini "tam bəyəndiyini", 26,5 faizi "əsasən bəyəndiyini" vurğulayıb, rəyi soruşulanların yalnız 6,0 faizi bu suala "bəyənmirəm", 3,5 faizi isə "bilmirəm" cavabını verib.

Respondentlərin bu cavabı müxtəlif səviyyəli ekspert qiymətləndirmələri ilə üst-üstə düşür. Məsələ ondadır ki, əksər beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları son bir ildə Azərbaycanda gedən sosial-iqtisadi prosesləri, həyata keçirilən islahat kursunu böyük maraqla izləyir və çox müsbət səciyyələndirirlər. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan hazırda dünya miqyasında 25-ci yerdə qərar tutub. Aparıcı beynəlxalq reytinq agentlikləri Azərbaycanın sosial-iqtisadi və maliyyə durumunu yüksək qiymətləndirir. Odur ki, Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını əks etdirən sosial-iqtisadi siyasətinin ölkə əhalisi tərəfindən bəyənilməsi tam təbii hesab olunmalıdır.

Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "Opinion Way"in sualına respondentlərin bütövlükdə 75,6 faizi müsbət cavab verib. Bununla bağlı rəyi soruşulanların yalnız 5,8 faizi verilən vədlərin yerinə yetirilmədiyi, 4,2 faizi isə cavab verməyə çətinlik çəkdiyi qənaətində olub.

Bu nəticəni sosioloqlar onunla izah edirlər ki, Azərbaycan Prezidenti daim öz xalqı ilə birbaşa təmasdadır və onun sözü ilə əməli indiyə qədər daim vəhdət təşkil edibdir. Bu vədlərin ardıcıl yerinə yetirilməsi nəticəsində Azərbaycan son on altı ildə öz dinamik inkişafını təmin edib, mühüm transmilli enerji və nəqliyyat layihələrini icra edib, planetin azsaylı kosmik dövlətləri sırasına daxil olub, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin əsaslı inkişafına nail olunub. Əhalinin rifahı durmadan yüksəlib, ölkədə 3 milyon insanı əhatə edən böyük sosial paketin həyata keçirilməsinə başlanılıb. Cəmiyyəti düşündürən istənilən məsələdə Prezident xalqla həmrəylik nümayiş etdirib və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər həyata keçirib.

Prezident İlham Əliyevin kadr islahatları da sorğuda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilib. Bununla bağlı sualları cavablandıran respondentlərin 78,8 faizi həyata keçirilən kadr siyasətinə birbaşa öz müsbət rəyini bildirib, onlardan 43,3 faizi bu sahədəki dəyişikliklərdən tam razı qaldığını, 35,5 faizi isə əsasən razı qaldığını nümayiş etdirib.

Ekspertlərin fikrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi struktur və kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması, peşəkar kadr bazasının formalaşdırılması və layiqli namizədlərin mühüm vəzifələrə irəli çəkilməsi kimi məsələlərin həlli istiqamətində ciddi addım olub. Təsadüfi deyil ki, son zamanlar keçirilən bütün sorğularda Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlər yüksək qiymətləndirilib.

Sorğunun nəticələrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi korrupsiya əleyhinə mübarizə tədbirləri də cəmiyyət tərəfindən təqdir olunub. Rəyi soruşulanların 75,6 faizi korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirləri effektli və qənaətbəxş qiymətləndirib.

(Davamı 2-ci səhifədə)

DƏNİZ

12 aprel 2019-cu il № 25-28 (9307)

Əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin təxminən 83-85 faizinin səsini qazana bilər

(Əvvəli 1-ci səhifədə)

Yenə də ekspertlər bunu onunla izah edirlər ki, son dövrdə Prezident İlham Əliyev korrupsiya və rüşvətxorluğa qarşı mübarizəni dövlət siyasətində prioritet istiqamətlərdən biri kimi elan edib, ölkədə sistem xarakterli, inzibati və institusional tədbirlər həyata keçirilib. Onun birbaşa təşəbbüsü ilə yaradılan "ASAN xidmət" modeli hazırda korrupsiya ilə mübarizə sahəsində effektli və innovativ mexanizm kimi bütün dünyada təqdir və tətbiq olunur. Bundan başqa, vergi, gömrük, sosial və digər idarəçilik sahələrində həyata keçirilən məqsədyönlü tədbirlər şəffaflığın yüksəldilməsi, dövlət büdcəsinin gəlirlərinin artması və başqa mühüm məsələlərin həllini təmin edib.

"Opinion Way"in "İlham Əliyevin qəbul etdiyi "Regionların sosial-iqtisadi inkişaf proqramı" və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində sizcə regionlar inkişaf edibmi" sualına respondentlərin 93,1 faizi "hə" cavabı verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini tam müsbət, 20,8 faizi "əsasən müsbət" kimi dəyərləndirib.

Görünür, belə yüksək nəticə onunla izah edilə bilər ki, keçən il regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramı uğurla başa çatıb, beşillik proqram artıqlaması ilə yerinə yetirilib. Üç proqramın icrası nəticəsində bölgələrin infrastrukturları müasir standartlara uyğun yenidən qurulub, minlərlə istehsal müəssisəsi, iki milyondan artıq yeni iş yeri açılıb, ayrı-ayrı sahələrin, o cümlədən qeyri-neft sektorunun əsaslı inkişafına nail olunub. Bu il isə regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib və icrasına başlanıb.

Prezident İlham Əliyevin regionların inkişafına xüsusi diqqət göstərməsi həm də vətəndaşların böyük rəğbətini qazanıb. Sorğuda ölkə Prezidentinin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri "çox yüksək", 27,5 faiz "əsasən yüksək", 14 faiz isə "qismən yüksək" kimi qiymətləndirib.

Məsələ ondadır ki, Prezident İlham Əliyev 16 illik prezidentliyi dövründə regionların sosial-iqtisadi inkişafını hər zaman xüsusi diqqət mərkəzində saxlayıb. O, təkcə keçən il Azərbaycanın bölgələrinə 24 səfər edib, vətəndaşlarla birbaşa ünsiyyətdə olub. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb. Bundan başqa, dövlət başçısının yerlərdə əhali ilə görüşləri, problemlərlə şəxsən tanış olması, onların qısa zamanda aradan qaldırılması və digər məsələlər bu sorğunun göstəricilərini şərtləndirən amillərdir.

Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də əhalinin müsbət mövqeyini ifadə edib: Sorğuda iştirak edənlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb, onların 73,9 faizi suala "əla", 16,0 faizi "kafi" cavabı verib, 2,4 faizi "pis", 7,7 faizi isə "dəqiq bilmirəm" kimi münasibət bildirib.

Ekspertlərin fikrinə görə, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və məqsədyönlülüyü ilə xarakterizə olunub, daim milli maraqlara söykənibdir. Bunun nəticəsində də keçən müddətdə Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilib, bir çox əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olub. Hazırda ölkənin müttəfiqləri və tərəfdaşlarının sayı gündən-günə artır, Azərbaycan dünya miqyasında özünün etibarlı tərəfdaş imicini möhkəmləndirir. Ölkənin beynəlxalq səviyyədə həyata keçirdiyi bərabərhüquqlu və qarşılıqlı maraqlar prinsiplərinə söykənən xarici siyasət strategiyası ekspertlər tərəfindən təqdir olunan model kimi səciyyələndirilib.

Beləliklə, göründüyü kimi, "Opinion Way"in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Ümumiləşmiş orta nəticələr onu göstərir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin mütləq çoxluğunun, təxminən 83-85 faizinin səsini qazana bilər.

ASCO-da rəhbər şəxslər üçün "Konstruktiv tənqid" mövzusunda təlim təşkil olunub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) rəhbər işçiləri üçün "Konstruktiv tənqid" mövzusunda təlim keçirilib. Təlimdə ASCO-nun İdarə heyəti və departament rəhbərləri iştirak ediblər.

Seminarı beynəlxalq səviyyəli biznes-təlimçi Rəşad Bayramov aparıb. O bildirib ki, personal və iş prosesi barədə rəylər və tənqidlər gündəlik iş həyatının ayrılmaz hissəsidir. Bu rəylərin ən uyğun zamanda və düzgün şəkildə ifadə edilməməsi personalın motivasiyasına və görülən işin keyfiyyətinə bilavasitə təsir edərək mənfi nəticələrə səbəb ola bilər. Ona görə bu proses düzgün idarə edilməlidir.

Rəşad Bayramov təlim zamanı konstruktiv tənqidin qızıl qaydalarını da açıqlayıb. Bildirib ki, tənqid konstruktivdirsə, şəxsiyyətə ünvanlanmayıbsa və gələcəkdə əməyin məhsuldarlığının artırılmasına gətirib çıxarırsa, o zaman o, ümumi maraqlara qulluq edir.

Təlimçi diqqətə çatdırıb ki, tənqidə keçməmişdən öncə şəxslərin fikrinin soruşulması da vacib amillərdəndir.

İnteraktiv formada təşkil olunan təlimdə mövzuya uyğun müxtəlif vidеolar nümayiş olunub, konstruktiv tənqidlə bağlı tapşırıqlar verilib, ortaya çıxan suallar cavablandırılıb.

Xatırladaq ki, ASCO-da bu növ təlimlər gələcəkdə də davam etdiriləcək. Əsas məqsəd Cəmiyyətin strateji hədəflərinə uyğun təlim və təhsilə olan ehtiyacları müəyyənləşdirərək insan resurslarının davamlı inkişafını, eləcə də personalın yeni istehsalat vəzifələrinin icrasına hazırlanmasını, işçilərin biliklərinin sistemli şəkildə yenilənməsini, əməkdaşların peşə mədəniyyətinin və peşə reytinqinin artırılmasını müasir təhsil və təlim metodları ilə təmin etməkdən ibarətdir.

Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiya yaradılıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiyanın yaradılması haqqında Qərar imzalayıb.

Qərarla Baş nazirinin müavininin sədrlik etdiyi, Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdirinin katibi olduğu komissiyaya müdafiə, daxili işlər, mədəniyyət, gənclər və idman, təhsil, səhiyyə, maliyyə, əmək və əhalinin sosial müdafiəsi nazirlərinin müavinləri, Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin, Dövlət Turizm Agentliyi sədrinin, Milli Arxiv İdarəsi rəisinin müavinləri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri daxildir.

Qərara əsasən dövlət müəssisələrinin, təşkilatlarının, idarələrinin və digər obyektlərin adlarının dəyişdirilməsi, onlara görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin adlarının verilməsi ilə əlaqədar daxil olmuş təkliflər və Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatətlər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün bu Qərarla yaradılan komissiyaya təqdim edilir.

Qərardan irəli gələn digər məsələlər "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanına əsasən həll edilir. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında" 1995-ci il 10 yanvar tarixli 5 nömrəli və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında" 1995-ci il 10 yanvar tarixli 5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 1995-ci il 10 avqust tarixli 181 nömrəli qərarları ləğv edilir.

Müdafiə Nazirliyi vətəndaşlara və KİV nümayəndələrinə müraciət edib

Müdafiə Nazirliyi vətəndaşlara və KİV nümayəndələrinə müraciət edib.

Müraciətdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ordu ilə xalq arasında əlaqələrin daha da möhkəmləndirilməsi, ictimaiyyət nümayəndələrinin hərbi hissələrdə həyata keçirilən quruculuq işləri, eləcə də valideynlərin övladlarının xidməti şəraiti ilə əyani şəkildə tanış olmaları məqsədilə Müdafiə Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirildiyi vurğulanıb.

Görülən işlərin xalqımız tərəfindən böyük rəğbətlə qarşılandığının qeyd olunduğu müraciətdə bildirilib: "Lakin son günlər müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin hərbi hissələrə, xüsusilə də ön xətdə yerləşən bölmələrə səfərlərindən sonra ayrı-ayrı vətəndaşlarımızın mobil telefon, videokamera və fotoaparat vasitəsilə hərbi hissələrin ərazisində çəkdikləri kadrlar sosial şəbəkələrdə yayılır, müxtəlif şərhlər paylaşılır. Beləliklə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq tələbləri pozularaq düşmənə Ordumuz barədə məlumatlar əldə etmək imkanı yaradılır.

Müdafiə Nazirliyi bildirir ki, hərbi hissələrin və ön xətt bölmələrimizin, xüsusilə də onların şəxsi heyətinin təhlükəsizliyi baxımından bu cür hallar yolverilməzdir".

ASCO-nun Xəzərin təmizliyinə daha bir töhfəsi

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus gəmiləri dənizin dibindən batmış gəmi hissələri çıxarıblar.

"Ağ şəhər" bulvarının su akvatoriyasının metal hissələrdən təmizlənməsi işləri çərçivəsində Xəzər dənizinin dibindən ümumilikdə 445 ton ağırlığında üç gəmi korpusu çıxarılıb. Korpuslar müvafiq olaraq 180, 200, 65 ton olub. Batmış hissələri əvvəlcə dalğıclar kəndirlə bağlayıb, daha sonra kran gəmisinin köməkliyi ilə onlar "Barja-701" barjının göyərtəsinə qoyulub. Yedək gəmiləri ilə barjdakı gəmi hissələri sahilə çatdırılaraq metal qırıntısı kimi təhvil verilib.

Həyata keçirilən işlərə Xəzər Dəniz Neft Donanmasının "Qurban Abasov", "Socar-1", "Barja-701", "Hövsan-5", "Abşeronskaya-6", "SPK-47/25", "Hövsan-2" gəmiləri və barjı cəlb edilib.

Qeyd edək ki, ətraf mühitin qorunması ASCO üçün əsas davamlı inkişaf meyarlarından biridir. Bu baxımdan ASCO-da ətraf mühitə zərərin vurulmaması üçün mütəmadi zəruri qabaqlayıcı tədbirlər görülür. Gəmilərin istismarı zamanı yaranan müxtəlif çeşidli bərk və maye tullantıların, habelə qaz atqılarının su mənbələrinə, qrunta və atmosferə ekoloji təsirlərinin minimuma endirilməsi daim çox ciddi diqqət mərkəzində saxlanılır.

İranın Bəndər-Abbas limanı yaxınlığındakı gəmiqayırma zavodunda partlayış baş verib

İranın Bəndər-Abbas limanı yaxınlığında gəmiqayırma zavodunda baş verən partlayış nəticəsində 3 nəfərin öldüyü bildirilir.

AZƏRTAC "Fardanews" saytına istinadla xəbər verir ki, Bəndər-Abbas limanından 37 kilometr aralıda yerləşən gəmiqayırma zavodunda bilinməyən səbəblərdən partlayış baş verib. İnsident zamanı burada işləyən İranın müdafiə sənayesi əməkdaşlarından ən azı 3 nəfəri həlak olub. Zavodda olan sualtı qayıqdakı üç batareya da partlayıb.

IRIB telekanalının saytında yerləşdirilən xəbərdə bildirilib ki, Bəndər-Abbas limanı yaxınlığındakı Şəhid Dərvişi gəmiqayırma zavodunda sualtı qayığın batareyalarının partlaması nəticəsində "Müdafiə Nazirliyinin üç əməkdaşı şəhid olub".

İranın Müdafiə Nazirliyi insidentlə bağlı rəsmi məlumat yaymayıb.

“Dəniz nəqliyyatının inkişaf perspektivləri”

Azərbaycan Dövlət Dəniz Akademiyasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tələbə, magistrant və gənc tədqiqatçıların “Dəniz nəqliyyatının inkişaf perspektivləri” adlı elmi-texniki konfransı keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan konfransı giriş sözü ilə Akademiyanın tədris və tərbiyə işləri üzrə prorektoru, professor Zahid Şərifov açıb. Ulu öndərin gənclərə münasibətini və məhz Heydər Əliyevin Azərbaycanda gənclər siyasətininin əsasını qoymasını xüsusi qeyd edən Zahid Şərifov bu siyasətin indi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Akademiyanın tələbəsi Famil Abbasov “Heydər Əliyev və Müstəqil Azərbaycan tarixi” mövzusunda geniş məruzə edib. Məruzəçi Ümummilli Liderimizin ölkənin ən ağır günlərində daim Azərbaycan xalqının yanında olması, hazırda yaşadığımız müstəqil Azərbaycanın qurulması yolunda Heydər Əliyevin əvəzsiz xidmətlərindən ətraflı söz açıb.

ASCO sədrinin birinci müavininin müşaviri Sakit Məlikov gənclərə Gəmiçilik rəhbərliyinin salamlarını çatdırıb və uğurlar arzulayıb.

ADDA-nın elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Vüqar Sadıqov çıxışında Ulu öndərin elmə və təhsilə xüsusi önəm verməsini xatırlayaraq vurğulayıb ki, Heydər Əliyev gənclərin yüksək səviyyədə biliklərə yiyələnməsi üçün Azərbaycanda təhsil sisteminin inkişafına qayğısını əsirgəməmişdir. Bugünkü elmi-texniki konfransın Ümummilli Liderin anadan olmasının 96-cı ildönümünə həsr edilməsi onun şəxsiyyətinə olan hörmət və ehtiramın təzahürüdür. V. Sadıqov bildirib ki, konfransda Belə tədbirlərin tələbələrin elmi yaradıcılığa həvəsləndirilməsinə, onların dünya görünüşünün inkişaf etdirilməsinə və öz fikirlərini sərbəst ifadə etməsinə kömək olacağını deyib.

Konfrans öz işini 6 bölmə üzrə davam etdirib, 80-dən artıq məruzə dinlənilib. Qaliblər müəyyənləşdirilib və ümumilikdə 19 tələbə müvafiq diplomlara layiq görülüb.

“Bir kəmər, bir yol” region üçün böyük əhəmiyyət daşıyan layihədir

Çin Xalq Respublikası 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn “Bir kəmər, bir yol” adlı yeni iqtisadi inkişaf strategiyası elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: “İpək Yolu İqtisadi Kəməri” və “Dəniz İpək Yolu”. Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

Çin ilə Azərbaycan xalqları arasında böyük tarixə malik olan dostluq münasibətləri nəticəsində Azərbaycan Çinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Bu baxımdan “Bir kəmər, bir yol” strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır.

Azərbaycan Cənubi Qafqaz regionunda çox önəmli bir ölkədir. Şimal ilə Cənubun, Şərq ilə Qərbin qovuşuğunda yerləşir, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu baxımdan Azərbaycan nəqliyyat və geosiyasi mövqe üstünlüyünə malikdir. Qədim İpək Yolu və müasir “Bir kəmər, bir yol” strategiyası üçün çox vacib rol oynayan Azərbaycanın nəqliyyat-logistika üstünlüyü açıq şəkildə özünü göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri çərçivəsində “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu” imzalanıb.

2019-cu il yanvarın 22-də isə Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Bir kəmər, bir yol” təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı” mövzusunda sessiya keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər. Prezident İlham Əliyev Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə ayaqüstü söhbət edib. Söhbət zamanı dövlətimizin başçısı deyib: “Azərbaycan “Şərq-Qərb” Nəqliyyat Dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik.

Yükdaşımaların həcmi də artır. Yalnız “Şimal-Cənub” dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb”.

Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri “Bir kəmər, bir yol” təşəbbüsü və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. Bir müddət əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu, o deməkdir ki, Çindən daşınan yüklər iki həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır. Bakı-Tbilisi-Qars layihəsi həm də Azərbaycanın dəmir yolu nəqliyyatı sahəsində çox mühüm rol oynadığını nümayiş etdirir.

2018-ci il oktyabrın 17-də Çində keçirilən İpək Yolu Biznes Sammitində “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov “Bir kəmər, bir yol” layihəsi çərçivəsində ticarətin təşviq edilməsi məqsədilə beynəlxalq nəqliyyat dəhlizinin birgə qurulması mövzusunda paneldə çıxışı zamanı Avrasiya məkanında mühüm geostrateji mövqedə yerləşən, zəngin iqtisadi və ticari əlaqələri olan Azərbaycanın və Bakı Limanının “Bir kəmər, bir yol” meqalayihəsi çərçivəsində rolu, Limanda gedən müasirləşdirmə işləri haqqında sammit iştirakçılarını məlumatlandırıb. Bildirib ki, 2018-ci ilin may ayında Ələt qəsəbəsində açılışı həyata keçirilən liman ən son texnoloji avadanlıqlarla təmin olunub, müasir tələblərə cavab verən əməliyyat sistemləri ilə işləyir. Bu proqramlar yük sahiblərinə imkan verir ki, onlayn rejimdə yükün yerini və statusunu izləyə bilsin. “Bir kəmər, bir yol” layihəsi çərçivəsində bütün marşrutların tam rəqəmsal formata keçirilməsi ticarət dövriyyəsinə müsbət təsir göstərəcək.

Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə üçün deyil, ümumilikdə Avrasiya regionunda yerləşən ölkələr üçün də iqtisadi baxımdan yeni imkanlar açır. Dünyanın ən böyük ixracatçı və ikinci ən böyük idxalçı ölkəsi olan Çinin də bu dəmir yoluna marağı yüksəkdir. Həmçinin bu dəmir yolu “Bir kəmər, bir yol” strategiyasının səmərəliliyini də artıracaq. Ona görə də, Çin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verir. Bir sözlə, Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış əldə etmiş olur.

İqtisadçı ekspert Vüqar Bayramov AZƏRTAC-a açıqlamasında bildirib ki, “Bir kəmər, bir yol” layihəsi region üçün qlobal əhəmiyyət daşıyan layihələrdən biridir. Burada söhbət Çindən başlayan və Avropaya qədər uzanan yoldan gedir. Layihənin mahiyyəti ondan ibarətdir ki, Çindən yola çıxan sürücü az zaman itirməklə Avropaya qədər gedib çıxa bilsin.

Onun sözlərinə görə, “Bir kəmər, bir yol” Azərbaycan üçün vacibdir. Bu xəttin Azərbaycandan keçməsi nəzərdə tutulur. Xəzərin statusu müəyyənləşdikdən sonra sözügedən təşəbbüsün Azərbaycan ərazisində reallaşması imkanları xeyli artıb. Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından bu layihə çox əhəmiyyətlidir. Son illər “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri çərçivəsində Azərbaycandan həyata keçirilən beynəlxalq yükdaşımaların həcmində artımlar var. Ölkəyə daxil olan yüklərin təxminən 90 faizi tranzit olaraq digər ölkələrə aparılır.

“Elektron xidmətlərdən istifadə olunması, prosedurların sadələşdirilməsi Azərbaycanı beynəlxalq yükdaşımaları baxımından cəlbedici edir. Azərbaycan Gürcüstan və Qazaxıstanla vahid tarifin tətbiq edilməsi ilə bağlı razılıq əldə edib. Bu da iş adamları üçün beynəlxalq yükdaşımalar baxımından çox vacibdir. Azərbaycan ötən il Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanında “Ro-Ro” terminalını istifadəyə verib. Bu da yükdaşımalarda vaxta qənaət edilməsi baxımından mühüm addımdır. “Bir kəmər, bir yol” layihəsi Azərbaycanda qeyri-neft sektorunun inkişafı, fərqli mənbələrdən daxilolmanın artırılması baxımından çox vacibdir. Layihə Azərbaycanın dövlət gəlirlərinin artması ilə yanaşı, ölkəyə daxil olan valyuta həcminin artmasına da müsbət təsirini göstərəcək”, - deyə V. Bayramov vurğulayıb.

Elvin Camalov

NATO-nun 70 illiyi: üzvlər arasında ziddiyyətlərin yeni mərhələsi

“Newtimes.az” portalında “NATO-nun 70 illiyi: üzvlər arasında ziddiyyətlərin yeni mərhələsi” sərlövhəli məqalə dərc edilib. Məqaləni təqdim edirik.

Amerikanın paytaxtında Şimali Atlantika Alyansının 70 illik yubileyi təntənə ilə qeyd edilib. Yubiley tədbirləri hay-küylü bəyanatların fonunda baş tutub. Üzv dövlətlər arasında fikir ayrılığı çərçivəsində bir sıra hadisələr baş verib ki, ekspertlər onların əsasında analiz aparır və proqnozlar verirlər. O cümlədən ABŞ-Türkiyə münasibətlərinin dinamikasına işıq salmağa çalışırlar. Ancaq burada bir başlıca məqam nədənsə unudulur. Məsələ ondan ibarətdir ki, Amerika, ümumiyyətlə, NATO üzvləri ilə ziddiyyətə girib. Fransa və Almaniyanın müstəqil Avropa ordusu yaratmaq ideyasını irəli sürməsi məhz bu aspektlə bağlıdır. Bunun fonunda da Amerikanın Türkiyəyə qarşı əsassız iddialarının morfologiyasını anlamaq olar. Digər tərəfdən, burada Rusiya amilinin rolunu unutmaq olmaz. Bütün bu məqamların işığında Alyansın 70 illik yubileyi kontekstində böyük dövlətlər arasında geosiyasi münasibətlərin bəzi mühüm aspektləri üzərində geniş dayanmağa ehtiyac görürük.

Hamıya hücum: Vaşinqton Şimali Atlantika Alyansını parçalayır?

Vaşinqtonda NATO-nun yaradılmasının 70-ci ildönümü ilə bağlı üzv dövlətlərin xarici işlər nazirlərinin toplantısı keçirilib. NATO dünyanın ən nüfuzlu hərbi bloku sayılır. Orada ABŞ ən güclü orduya malikdir. Sonrakı yerdə Türkiyədir. Lakin indi NATO-nun məhz bu iki üzvü arasında müəyyən anlaşılmazlıq mövcuddur. Bu məsələ o dərəcədə qabarıb ki, təşkilatın 70 illik yubileyi ərəfəsində ciddi surətdə söz atışmaları özünü göstərib. Bu məqamdan bir sıra ölkələrin siyasi və ekspert dairələri istifadə etməyə çalışaraq, iki dövlət arasında münasibətləri daha da gərginləşdirməyə cəhd edirlər. Əslində, problemin mahiyyəti ciddi amillərlə bağlıdır.

Donald Tramp prezident seçildikdən sonra ABŞ-ın bütövlükdə hər bir NATO üzvünə etirazı meydana çıxdı. Amerika prezidenti açıq bəyan etdi ki, təşkilatın üzvləri Vaşinqtonun pulunu xərcləyir, lakin lazımi məqamda ona dəstək vermirlər. Bu səbəbdən NATO üzvləri təşkilata daha çox pul ayırmalıdırlar. Ancaq ABŞ-ın bu tələbinə onun ənənəvi müttəfiqləri olan Avropa dövlətləri ehtiyatla yanaşdılar. Bu cür yanaşma indi də müşahidə edilir. Fransa və Almaniya kimi böyük dövlətlər büdcədən NATO üçün 2 faiz ayırmağa elə də isti yanaşmırlar.

Bundan əlavə, Fransa və Almaniya Avropanın Amerikadan asılı olmayan öz ordusunu yaratmaq ideyasını irəli sürüblər. Bu məsələni daha çox Fransa prezidenti Emmanuel Makron gündəmə gətirir. Həmin səbəbdən də Fransada etiraz hərəkatı başlayıb. Prezident Donald Tramp açıq deyir ki, fransızlar onu daha çox sevirlər. Almaniyanın kansleri Angela Merkel də Vaşinqtonun hərbi çətirindən qurtulmağın tərəfdarıdır. Həmin səbəbdən Berlin-Vaşinqton xəttində soyuq küləklər əsməkdədir.

Bütün bunlar onu göstərir ki, Şimali Atlantika Alyansı daxilində fikir ayrılıqları az deyil və onu ancaq ABŞ-Türkiyə münasibətləri ilə məhdudlaşdırmaq olmaz. Bütövlükdə təşkilatın struktur və funksional ziddiyyətləri dərinləşməkdədir. Bu isə təbii olaraq üzv dövlətlər arasında etimadı zəiflədir. Onlar təhlükəsizliklərini təmin etmək üçün müstəqil hərəkət etməyə məcburdurlar. O da məntiqidir ki, belə gedişatda fikir ayrılıqları daha da dərinləşə bilər. Vaşinqton-Ankara xəttində müşahidə edilən gərginliyə bu prizmadan baxdıqda, maraqlı qənaətlər əldə etmək olur.

ABŞ Türkiyənin Rusiyadan “S-400” zenit-raket sistemləri almasını etirazla qarşılayıb. Vaşinqtonun fikrincə, bu sistemlər vasitəsilə Rusiya NATO-nun hərbi potensialının informasiya sahəsinə nüfuz edib, sirləri öyrənə bilər. Ancaq türk mütəxəssislər bunun əsassız olduğunu deyirlər. Çünki Yunanıstan çoxdandır ki, "S-400"lərdən istifadə edir, ancaq onların vasitəsilə NATO-ya hansısa zərərin dəydiyindən danışılmır. Bəs Türkiyəyə qarşı niyə belə mövqe tutulur?

Bunun müxtəlif səbəbləri qeyd olunur. Başlıca məqam kimi Türkiyənin müstəqil xarici siyasət yeritməsi göstərilir. Doğrudan da, Türkiyə artıq dünya miqyasında təsiri olan müstəqil mövqe nümayiş etdirir. O cümlədən Vaşinqtonun direktivlərini yerinə yetirməkdən imtina edir. Bu cür mövqe Ankaranın həm Vaşinqtonla, həm də Brüssellə əlaqələrinə mənfi təsir göstərir. Buna baxmayaraq, Ankara seçdiyi xətdən imtina etmir. “S-400”lərlə bağlı situasiya isə daha konkret amillərlə əlaqəlidir.

Türkiyənin “günahı”: müstəqil və güclü olmaq istəyi

Məsələ ondan ibarətdir ki, Yaxın Şərqdə terror dalğası güclənəndə Türkiyə NATO-dan hava sahəsini qorumasını istədi. Öncə bir neçə “Patriot” sistemini Türkiyə ərazisində yerləşdirdilər. Ancaq bu sistemləri yalnız ABŞ və Avropa hərbçiləri işlədə bilirlər. Onlar türklərin “Patriot”ları öyrənməsini təmin etmədilər. Üstəlik, Suriyadan Türkiyəyə terrorçular raket atanda və rus qırıcıları Türkiyə sərhədi ətrafında tüğyan edəndə, NATO-dan heç bir tərpəniş olmadı. Onda Ankara anladı ki, təhlükəsizliyinin havadan təmini böyük risk altındadır. Türkiyə öncə Rusiyaya məxsus qırıcını vurdu və sübut etdi ki, onun hava sərhədini pozanlar cəzasız qalmır. Nəticədə, iki dövlət arasında ciddi narazılıq yarandı. Lakin türklər bu ziddiyyəti də həll etdilər.

Digər tərəfdən, Ankara NATO-dan hava hücumundan müdafiə sistemləri ilə təmin olunmağı tələb edirdi. Bu dəfə də təşkilat sükut etdi. Bu halda Ankara digər böyük dövlətlərə üz tutmağa məcbur oldu. Çinlə bir müqavilə imzalandı. Moskva bunu duyub, Ankara ilə işləri nizama salmağa tələsdi. Nəticədə, Rusiya ilə Türkiyə "S-400" məsələsində razılaşdı. Türkiyə Çinlə imzalanan müqavilədən imtina etdi.

İki ölkə bütün sferalarda əlaqələri daha da genişləndirərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdilər. Hazırda Rusiya və Türkiyə sürətlə əməkdaşlığı inkişaf etdirirlər. Bu məqamda Vaşinqton tələb edir ki, Türkiyə “S-400”ləri almaqdan imtina etsin. Faktiki olaraq bununla Rusiya-Türkiyə münasibətlərində çat yaratmağa çalışırlar.

NATO-nun 70 illik yubileyi ərəfəsində də Amerikanın yüksək vəzifəli şəxsləri Türkiyəni hədələyən bəyanatlar verdilər. Onlar dedilər ki, belə getsə, Türkiyəyə qarşı sanksiyalar tətbiq edəcək, o cümlədən “F-35” qırıcılarını verməyəcəklər. Buna baxmayaraq, Ankara öz sözünü deyir. Amerikaya mesaj göndərildi ki, ya terrorçuları, ya da Türkiyəni seçsin. Vaşinqton terrorçuları seçməklə NATO-da uçurum yaratdı, təhlükəsizliyi riskə atdı. Bu səbəbdən də seçim etməli olan Vaşinqtondur. “S-400”lərə gəldikdə isə, Ankara sazişdən imtina etməyəcək. Eyni zamanda, “Patriot”ları da ala bilər.

Belə çıxır ki, Şimali Atlantika blokunun 70 illiyinin keçirildiyi bir vaxtda bu kimi problemlərin özünü göstərməsinin başlıca səbəbi Vaşinqtonun tutduğu mövqedir. Amerika özünün geosiyasi maraqları üçün istənilən müttəfiqini çətin vəziyyətə salmağa hazırdır. Almaniya, Fransa, Türkiyə bunu öz üzərlərində birbaşa hiss etdilər. Daha çox Türkiyə bu cür yanaşmadan əziyyət çəkir. Yaxın Şərqdə baş verən hadisələr fonunda bu məsələ daha aktual görünür. Hətta NATO-nun baş katibi Yens Stoltenberq etiraf edir ki, Yaxın Şərqdəki terrordan təşkilat üzvlərindən ən çox Türkiyə ziyan görüb. Çünki bu ölkə həmin regiondadır və sərhədləri boyu silahlı toqquşmalar baş verir.

Bundan başqa, məhz Amerika Türkiyəyə düşmən olan terror qruplarına yardım edir. Əsas olaraq PYD/YPG-yə hərtərəfli yardımlar edir. Düşündürücüdür ki, Vaşinqton bu mövqeyindən əl çəkmir. İndi də Yaxın Şərqdəki terror qruplarına Amerikadan silah və maliyyə yardımı davam edir. Belə bir şəraitdə Türkiyə nə etməlidir?

Əlbəttə, təhlükəsizliyini təmin etmənin qayğısına qalmalıdır. Bu yolda onu NATO-dan çıxarmaq istəsələr belə, geriyə dönüş olmamalıdır. Çünki söhbət, ümumiyyətlə, türk dövlətinin mövcudluğundan gedir. Bu baxımdan NATO-nun yubileyi ərəfəsi Vaşinqton boş yerə özünü yorub.

Ekspertlər bütün bunların fonunda Rusiya-Türkiyə münasibətlərinin daha da inkişaf edəcəyini proqnozlaşdırırlar. Doğrudur, Rusiyada bəzi ekspertlər yaranmış vəziyyəti Rusiyanın diqtəsi kimi qələmə verməyə çalışırlar. Onlar guya Moskvanın Ankaraya ultimatum verərək, özünə yaxınlaşdırdığından dəm vururlar. Ancaq reallıq ondan ibarətdir ki, Türkiyə kifayət qədər böyük dövlətdir və onunla ultimatum dilində heç kimsə danışa bilməz. Belə olsaydı, indi Amerika ofsaydda qalmazdı.

Rusiya ilə Türkiyənin əməkdaşlığı hər iki tərəfə faydalıdır. Bütövlükdə Avrasiya geosiyasi məkanı üçün sərfəlidir. Çünki bu iki böyük dövlət geniş bir ərazidə təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı faydalı əlaqələrin yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verə bilərlər. Bu aspektdə hazırkı proseslərə nəzər salanda, Vaşinqton və Brüsselin daha çox narahat olması nəticəsini çıxara bilərik. Çünki Türkiyə NATO-dan çıxsa, daha müstəqil və daha güclü ola bilər. NATO üzvü olmaq da Ankaraya ziyan vermir. Yeganə şərt – Türkiyənin inkişafının qarşısında durmamaqdır. Vaşinqton bu istiqamətdə mövqeyini dəyişsə, Türkiyənin timsalında Yaxın Şərqin lider dövləti ilə dostluğu davam etdirə biləcək. Amerikanın başqa seçimi yoxdur!

Newtimes.az

DƏNİZ

12 aprel 2019-cu il № 25-28 (9307)

Azərbaycan əhalisinin sabit artım tempi ölkədə sosial-iqtisadi inkişaf prosesinin müsbət demoqrafik təzahürüdür

Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir. Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik və əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Həmin amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, məsələn, 2018-ci ildə ölkədə 139 min körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən kişilər arasında 69,5, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bildirib: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Prezident İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Hazırda ölkəmizdə demoqrafik vəziyyətin qiymətləndirilməsi və təkmil proqnozlaşdırma metodologiyasının yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin Əhali Fondu ilə birgə işlər aparılır.

Biz 10 milyon olduq!

Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisə baş verib, əhalinin sayı 10 milyon nəfərə çatıb.

2019-cu il aprelin 6-da saat 03:30-da Bakı şəhərində Rauf Həsənovun və Nigar Ocaqovanın (Ağdərə rayonu sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər) ailəsində ölkənin 10 milyonuncu sakini dünyaya gəlib. Doğulan qız uşağının çəkisi 3,6 kiloqram, boyu 52 santimetrdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə xalqımızı, yeni doğulmuş körpənin valideynlərini təbrik ediblər.

Sevindirici haldır ki, son illərdə Azərbaycan əhalisinin sayı sürətlə artır. Bu, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir.

Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan bir çox sahələrdə olduğu kimi, bu baxımdan da nümunəvi ölkədir. Nəzərə almaq lazımdır ki, dünyanın bir çox ölkələrində bu sahədə vəziyyət heç də ürəkaçan deyil, hətta əhalinin sayında azalma müşahidə olunur. Azərbaycanda isə əhalinin sayı dinamik templə artır.

Son vaxtlar, xüsusən bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verir. Sürətli inkişaf, sosial rifahın daha da yaxşılaşması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanda əhalinin artım tempinin qorunub saxlanmasına əminlik yaradır.

"Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda tədbir keçirilib

Dövlət Dəniz Agentliyində "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən Dövlət Dəniz Agentliyinin hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərhad Məmmədov dövlət qulluğu sahəsində həyata keçirilən uğurlu siyasətdən, habelə dövlətin idarə olunmasında və dövlət orqanlarının nüfuzunun artırılmasında dövlət qulluqçularının rolundan, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan söhbət açıb. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının 31 may 2007-ci il tarixli 352-IIIQ nömrəli Qanununun müddəalarına toxunan Fərhad Məmmədov bildirib ki, qeyd olunan Qanunun əsas məqsədləri dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi, dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi, dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsir imkanlarının genişləndirilməsindən ibarətdir.

Tədbir zamanı bildirilib ki, hər bir dövlət qulluqçusu öz fəaliyyətində qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutmalı, etik davranış qaydalarına və prinsiplərinə əməl etməlidir. Bununla əlaqədar olaraq Agentliyin rəhbərliyi tərəfindən əməkdaşların etik davranış qaydalarına əməl etməsinə ciddi nəzarət edildiyi də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunun dövlət qulluqçusunun vicdanlı davranışı, loyallığı, dövlət orqanlarına və dövlət qulluqçusuna olan ictimai etimadın artırılmasında dövlət qulluqçusunun rolu, dövlət qulluqçusundan tələb olunan mədəni davranış, dövlət qulluqçusunun qərəzsizliyi, dövlət əmlakından və məlumatlardan istifadə zamanı tələb olunan davranış forması, konfidensiallığın qorunub saxlanmasına riayət edilməsi ilə bağlı normaları barədə tədbir iştirakçılarına geniş məlumat verilib.

Tədbir zamanı Agentlikdə dövlət qulluğu və kadr işləri ilə bağlı həyata keçirilən tədbirlərin uğurlu nəticəsi olaraq dövlət qulluqçularının qeyri-etik davranışı və ya hər hansı qanun pozuntusuna yol verməsi barədə ötən dövr ərzində ərizə və ya şikayət qeydə alınmadığı vurğulanıb. Eyni zamanda, qeyd olunan qaydaların pozulmasına görə qanunvericilikdə intizam tənbeh tədbirlərinin tətbiq edilməsinin nəzərdə tutulduğu iştirakçıların diqqətinə çatdırılıb.

Agentlikdə çalışan dövlət qulluqçularının "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq xidməti fəaliyyətlərinin qiymətləndirilməsi sahəsində görülən işlər, vətəndaşların qəbulu, ərizə və şikayətlərinin elektron qaydada qəbulu və cavablandırılması üzrə görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilib.

Daha sonra, tədbir iştirakçıları arasında Azərbaycan Respublikasının "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunu ilə müəyyən edilmiş "Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi" etik davranış qaydasına əməl olunması zamanı praktikada qarşıya çıxan mübahisəli məsələlərə dair müzakirələr keçirilərək onların həlli yolları barədə fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda maraq doğuran məsələlərlə bağlı müzakirələr aparılıb.

Müdafiə Nazirliyi: "Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır"

Dünyada elə bir dövlət yoxdur ki, onun ordusu sülhə hazırlaşsın. Orduların vəzifəsi sülhə yox, məhz müharibəyə hazır olmaqdır.



Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycanın hərbi-siyasi rəhbərliyinin ordunu sülhə hazırlamaqla bağlı dediyi fikri AZƏRTAC-a şərh edərkən bildirib.

"Ordunun funksiyası daim müharibəyə hazır olmaqla ölkənin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsidir.

Ali Baş Komandanımızın bəyan etdiyi kimi, Ermənistan sülh istəyirsə, erməni əsgəri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalıdır.

Ermənistanın hərbi-siyasi rəhbərliyi birdəfəlik anlamalıdır ki, yalnız torpaqlarımızı işğaldan azad etdikdən sonra Ordumuz sülh haqqında düşünə bilər. İndiki şəraitdə isə Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır", - deyə polkovnik V.Dərgahlı bildirib.

Silahlı Qüvvələrə Yardım Fonduna 98 milyon manatdan çox vəsait yığılıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il aprelin 1-dək 98 milyon 386 min 852,81 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 36 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə ölkəmizdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

Albaniya sularında TAP-ın ilk dəniz boruları inşa edilir

Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) boru kəməri üzrə Albaniya sularında ilk dəniz borularının inşasına başlanılıb.

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, TAP-ın Albaniyada ilk dəniz boruları müvəffəqiyyətlə sahilə çıxarılıb. Belə ki, TAP-ın dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın "Saipem" şirkəti bu əməliyyatlar üçün "Castoro 10" gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb.

Uzunluğu 139 metr və eni 36 metr olan "Castoro 10" gəmisi boruları Albaniyanın dayaz sularında döşəməyə davam edir, bunun ardından fiber-optik kabelin çəkilişi də həyata keçiriləcək.

TAP ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlayıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək. 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 10 faizdən çoxu icra olunub.

Qeyd edək ki, TAP layihəsi qrafik üzrə davam edir. Fevralın sonuna TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 85,7 faizi icra olunub. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa edilir.

TAP-ın Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla 2 kompressor stansiyasının inşası qrafik üzrə davam edir. Kipoidəki stansiyada ümumi tikinti işlərinin 79 faizi yekunlaşıb. Fierdəki kompressor stansiyasının inşasının isə 77 faizi başa çatıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir.

İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

CADMATİC proqram təminatı ilə bağlı bütün suallar ətraflı cavablandırılıb

Azərbaycan Dövlət Dəniz Akademiyasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və CADMATİC şirkəti ilə birgə beynəlxalq seminar keçirilib. Seminarın mövzusu dünyada nüfuzlu proqram təminatçısı olan CADMATİC şirkətinin gəmiqayırmada geniş istifadə edilən proqramının təqdimatı olub.

Akademiyanın prorektoru, professor Zahid Şərifov seminarın əhəmiyyətindən danışaraq bildirib ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi tələbələrin təhsilinin daha müasir və innovativ metodlarla qurulmasını daim diqqətdə saxlayır. CADMATİC proqram təminatının Akademiyanın təhsil prosesinə tətbiq olunması buna bariz nümunədir.

Sonra proqram təminatını təqdim edən rusiyalı mütəxəssis Pyotr Yejov bildirib ki, CADMATİC "Gəmiqayırma, okean texnikası və dəniz infrastrukturu obyektlərinin sistem texnikası" istiqamətində yeni hazırlıq standartında istifadə olunan proqram təminatıdır. CADMATİC tələbələrə müəyyən bir tapşırığın modelləşdirilməsinə və təcrübədən keçirilməsinə imkan yaradır. Bu proqram təminatının hər il yenilənməsini söyləyən rusiyalı mütəxəssis onu da qeyd edib ki, hər yenilənmə zamanı proqramın imkanları daha da genişlənir. Bu, öz növbəsində qarşıya qoyulan məsələlərin daha operativ və effektiv həllinə imkan yaradır.

Pyotr Yejov bu seminarın keçirilməsinə şərait yaratdığı üçün Akademiyaya öz təşəkkürünü bildirib.

CADMATİC şirkətinin nümayəndəsi Yevqeni Yeqorov proqram təminatının dünyanın 59 ölkəsinin 1000-dən çox şirkətində tətbiq olunduğunu söyləyib. O, seminar iştirakçılarına slayd vasitəsi ilə CADMATİC proqram təminatında layihələndirilmiş bir neçə gəmi nümunələrini nümayiş etdirib.

Seminarda Akademiyanın müəllim və tələbələri ilə yanaşı, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun mühəndisləri və digər mütəxəssislər iştirak ediblər.

Sonda seminar iştirakçılarının CADMATİC proqram təminatı ilə bağlı sualları ətraflı cavablandırılıb.

Ustad dərslərinə start verilib

Azərbaycan Dövlət Dəniz Akademiyasında tədris prosesinin tələbələr üçün daha faydalı və maraqlı olması məqsədilə mütəmadi müxtəlif ixtisaslar üzrə ustad dərsləri keçirilir. Bu dərslər Akademiyanın müəllimləri ilə yanaşı, digər ali təhsil ocaqlarından dəvət olunmuş aparıcı mütəxəssislər tərəfindən də elektron təqdimat üsulu ilə aparılır.

Aprelin 2-də yaz semestrində ilk ustad dərsini texnika elmləri namizədi, Akademiyanın "Gəmi elektroavtomatikası" kafedrasının dosenti Lətif Məmmədov təqdim edib. "Gücləndiricilər və onların iş prinsipləri" mövzusunda ustad dərsinin məqsədi gənc müəllimlərə beynəlxalq səviyyədə qəbul olunmuş interaktiv təlim sistemini öyrətməkdən ibarətdir. L.Məmmədov müasir təhsil sistemini sovet təhsil sistemi ilə müqayisə edərək, tələbələrin qiymətləndirilməsi, interaktiv təlim və tələbələrin tədrisdə daha aktiv iştirakı üçün istifadə edilən üsullar mövzusuna da toxunub.

"Gəmi mexanikası və elektromexanikası" fakültəsinin tələbələrinin fəal iştirakı ilə keçən ustad dərsi sual-cavabla yekunlaşıb.

"Dənizlərin və okeanların qorunması" mövzusuna həsr edilən iclas keçirilib

Aprelin 2-də Türkiyənin İstanbul şəhərində Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) Parlament Assambleyası ilə Baltik Dənizi Parlament Konfransının (BSPC) birgə daimi komitə iclası keçirilib. İclasın əsas hissəsi "Dənizlərin və okeanların qorunması" mövzusuna həsr edilib. İclasa QDİƏT PA-nın sədr müavini, Türkiyə Böyük Millət Məclisinin qurumdakı nümayəndə heyətinin rəhbəri Cəmal Öztürk sədrlik edib.

İclasda Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Eldar Quliyev mövzu ətrafında çıxış edib. Natiq çıxışında Xəzər dənizində olan ekoloji vəziyyət haqqında məlumat verib. Eldar Quliyev, həmçinin Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid hissəsində ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün atdığı addımlar haqqında da söhbət açıb.

Görüşdə QDİƏT PA-nın İstanbulda yerləşən Beynəlxalq Katibliyinə aid daxili nizamnaməsində aparılacaq dəyişikliklərlə bağlı müzakirələr aparılıb.

Azərbaycan ərazisində suda yaşayan canlılara aid ən qədim tapıntıların 350-370 milyon il yaşı var

Azərbaycan ərazisində suda yaşayan canlılara aid ən qədim tapıntılar Naxçıvanda Arpaçayın ətrafında aşkarlanıb. Tapılan qalıqların yaşı 350-370 milyon il əvvələ gedib çıxır. Aparılan qazıntılar zamanı daha çox molyusklar və süngərlər tapılıb.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Elmlər Akademiyasının Təbiət Tarixi Muzeyinin direktoru Tariyel Heybətov deyib. Onun sözlərinə görə, Arpaçay ətrafında pəncəüzgəcli balıqlar da aşkar edilib. Bu canlılar devon dövründə - paleozoy erasının başlanğıcından etibarən dördüncü geoloji dövrdə mövcud olan okeanda yaşayıblar. T.Heybətov əlavə edib ki, geoloji araşdırmalar zamanı məlum olub ki, ərazilərimizin böyük hissəsi bu gün mövcud olmayan okeanın dibində yerləşib.

Devon dövründə braxiopodların (çiyinayaqlılar) inkişafı geniş vüsət alıb. Bundan əlavə, həmin dövrdə qoniatitlər, klimeniyalar, mərcanlar, ostrakodlar, konodontlar, molluskalar, foraminiferlər, nəhəng xərçəngəbənzərlər və balıqların bütün sinifləri də geniş yayılıb. Sonradan suda-quruda yaşayanlar meydana gəlib. Bundan başqa, geoloji araşdırmalar təsdiq edir ki, bu ərazilərdə nəhəng balinalar da mövcud olub. Bu gün geoloji qazıntılar zamanı aşkar olunan nəhəng su canlılarının qalıqları Təbiət Tarixi Muzeyində qorunub saxlanılır.

Muzeyin eksponatları arasında nəhəng dişli quşlar da var. Muzeyin direktoru qeyd edib ki, bu canlının qalıqları Arpaçay ətrafında tapılıb. Bioloji xüsusiyyətinə görə, dişli quşun okean canlıları ilə qidalandığı ehtimal olunur.

ASCO-da SAİPEM nümayəndələrinin iştirakı ilə təlim keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Təlim-Tədris Mərkəzində SAİPEM şirkətinin müxtəlif ölkələrdən olan nümayəndələrinin iştirakı ilə təhlükəsizlik təlimi keçirilib.

Təlimi ASCO sədrinin müşaviri, uzun illər dənizdə çalışan, tanınmış kapitan Titos Giannakakis aparıb.

Bu təlim Beynəlxalq Dəniz Təşkilatının (İMO) Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmələri Haqqında Beynəlxalq Konvensiyasında (STCW) nəzərdə tutulan zəruri proqram siyahısına daxildir.

Proqram heyətə yeni qoşulan dənizçilərin bilməsi vacib olan bir neçə əsas təhlükəsizlik məsələsini əhatə edir. Bura xilasetmə alətləri (Life Saving Appliances – LSA) və yanğınsöndürmə avadanlıqlarından istifadə (Fire Fighting Equipment – FFE) qaydaları, gəmidə fövqəladə hallar zamanı davranış, gəmi təhükəsizliyi qaydalarına riayət, gəmi təhlükəsizliyinə cavabdeh şəxsin vəzifə və öhdəlikləri kimi məsələlər daxildir.

Təlim nəzəri və praktiki hissədən ibarət olub. Nəzəri hissədə dəniz şəraitində qəza hallarında təhlükəsizliyin təmini, xilasedici vasitələr haqqında məlumat verilib. Təcrübi hissədə isə gəminin xilasetmə alətləri və yanğınsöndürmə avadanlıqlarından istifadə (FFE) qaydaları ilə bağlı məşq yerinə yetirilib.

Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun ikinci iclası Qazaxıstanda olacaq

Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun ikinci iclası aprelin 16-17-də Qazaxıstanın Nur-Sultan şəhərində keçiriləcək.

Bu barədə Qazaxıstan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Aybek Smadiyarov məlumat verib.

Qeyd edək ki, Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun ilk iclası fevralın 19-20-də Bakıda keçirilib. Müzakirələrdə Azərbaycan, İran, Qazaxıstan, Rusiya, Türkmənistan nümayəndə heyətləri iştirak ediblər.

İlahə Əhmədova

Vətənimizin keşiyində dayanan əsgərlərə Qələbə sevinci arzulanıb

Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Azərbaycan Ordusunun 2016-cı ilin Aprel döyüşlərində qazandığı qələbənin üçüncü ildönümü münasibətilə Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər təşkil edib.

Böyük Qayıdışın başlanmasının rəmzi olan Cocuq Mərcanlıya səfərdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyevin rəhbərliyi ilə rayon ictimaiyyətinin nümayəndələri, partiya fəalları, gənclərdən, o cümlədən Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələrindən ibarət 100 nəfər iştirak edib.

Səfər iştirakçıları əvvəlcə Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edərək, önünə tər çiçəklər qoyub, respublikamızın ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Sonra Cocuq Mərcanlıda yol kənarına çinar ağacları əkilib.

Daha sonra Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin kollektivi və sakinlərlə görüş keçirilib. Müəllim və şagirdlər qarşısında çıxış edən Şəmsəddin Hacıyev bildirib ki, qurumun üzvləri artıq ikinci ildir Cocuq Mərcanlıya səfər edir: "Biz bu səfərlərlə bildirmək istəyirik ki, siz tək deyilsiniz. Bütün Azərbaycan, o cümlədən Səbail rayonunun ziyalıları, YAP üzvləri sizinlədir".

Dövlət başçısının diqqət və qayğısı sayəsində Cocuq Mərcanlının gündən-günə dəyişdiyini bildirən YAP Səbail rayon təşkilatının sədri deyib: "Buraya hər gələndə bir yeniliyin şahidi oluruq. Artıq burada təkcə evlər deyil, eləcə də istehsal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bu, ölkədə aparılan düşünülmüş siyasətin nəticəsidir. İşğaldan azad ediləcək bütün torpaqlarımızda belə gözəl kəndlər, şəhərlər salınacaq".

Səfərin üç il əvvəl Azərbaycan Ordusunun yazdığı şanlı günlərə təsadüf etdiyini qeyd edən Şəmsəddin Hacıyev Aprel döyüşlərindən də söz açıb: "Azərbaycan Ordusu 2016-cı ilin aprelində düşmənin cəbhədəki təxribatlarının qarşısını alıb və əks hücuma keçərək, mühüm strateji yüksəklikləri işğaldan azad edib. Aprel zəfəri Şuşaya, Xankəndinə qayıdışın, böyük qələbənin başlanğıcıdır. Bu döyüşlərə qədər ermənilər özləri barədə belə bir mif yaratmışdılar ki, onların ordusu güclüdür, məğlubedilməzdir. Ancaq Azərbaycan Ordusu öz qələbəsi ilə ermənilərin yaratdıqları bu mifi darmadağın etdi".

Milli Məclisin deputatı bildirib ki, Azərbaycan bu gün qüdrətli bir ölkəyə çevrilib. Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. "Bu, bizə imkan yaradır ki, hərbi gücümüzü daha da artıraq, ordumuzu ən müasir silahlarla təchiz edək. Azərbaycan Ordusu bu gün bütün göstəricilərə görə Ermənistan ordusundan dəfələrlə üstündür. Silahlı Qüvvələrimiz çox qısa bir müddətdə bütün işğal olunmuş ərazilərimizi azad etməyə qadirdir. Ancaq biz sülh istəyirik. İstəyirik problem sülh yolu ilə, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr çərçivəsində həll olunsun", - deyə Şəmsəddin Hacıyev bildirib.

Qonaqlar məktəbin sinif otaqlarını, fənn kabinetlərini gəzib müəllim və şagirdlərlə həmsöhbət olublar. Məktəbə kitablar hədiyyə edilib.

Nümayəndə heyəti ön xəttə xidmət edən əsgər və zabitlərin xidmət və məişət şəraiti ilə tanış olub, onlara televizor hədiyyə ediblər. YAP Səbail rayon təşkilatının sədri Vətənimizin keşiyində dayanan əsgərlərə çətin və şərəfli xidmətlərində uğurlar diləyib, onlara qələbə sevinci arzulayıb. Əsgərlər "Qarabağ" mahnısını oxuyublar.

Qonaqlar Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məsciddə olub, burada şəhidlərin ruhuna dua oxuyublar. Sonra N saylı hərbi hissəyə gələrək əsgər və zabitlərlə birgə nahar ediblər.

Səfər çərçivəsində Füzuli rayonunun Alıxanlı kəndində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülən 2 yaşlı Zəhra və nənəsi Sahibə Allahverdiyevanın xatirəsinə hərbi birlik komandanlığının təşəbbüsü ilə yaradılan abidə də ziyarət olunub. Zəhranın valideynlərinə baş çəkən nümayəndə heyəti onlara maddi yardım ediblər.

Tahir Ağaməmmədov

"Cəlil Məmmədquluzadə" tankeri yenidən yükdaşımalara cəlb edilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyat Donanmasına məxsus 8 min tonluq "Cəlil Məmmədquluzadə" tankeri əsaslı təmir edilib.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan işlər tam uğurla başa çatdırılıb.

Təmir müddətində gəminin su-altı, suüstü hissəsi, göyərtəsi, maşın şöbəsi təmizlənib və rənglənib. Baş mühərrik, köməkçi mühərriklərdə və nasoslarda təmir işləri görülüb. Maşın şöbəsində və baş göyərtədə boru sistemlərində yararsız hissələr dəyişdirilib. Həmçinin, gəmi üzrə elektrik-quraşdırma işləri yerinə yetirilib.

Bununla belə, gəminin heyətinə məxsus yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxana da yenilənib.

"Cəlil Məmmədquluzadə" tankeri artıq dəniz sınağından uğurla çıxıb və yenidən yükdaşımalara cəlb edilib.

ASCO-nun tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Yükdaşımalarda xüsusi çəkisini saxlamaq üçün donanmanın gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan gəmilərlə zənginləşməsinə xüsusi fikir verilir. Hazırda Bakı Gəmiqayırma Zavodunda ASCO üçün iki yeni tanker tikilir. Onlardan biri – "Laçın" tankeri inşasının növbəti mərhələsininin həyata keçirilməsi məqsədi ilə bu günlərdə suya buraxılıb. Sözügedən tanker 2019-cu ilin iyununda tam istismara veriləcək.

Təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus "Akademik Həsən Əliyev" gəmi-bərəsi əsaslı təmir olunub.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib. Belə ki, gəmi-bərənin sualtı və suüstü hissəsi, aşağı və yuxarı vaqon göyərtəsi, baş göyərtəsi, maşın şöbəsi və üst qurumu təmizlənərək rənglənib.

Sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri təmir olunub, avar valları saz hala gətirilib, göyərtədə və maşın şöbəsində boru işləri yerinə yetirilib. Gəmi üzrə elektrik quraşdırma və avtomatika işləri görülüb.

Bundan başqa, gəmi-bərənin yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir olunub.

Dəniz-sınaq yoxlamasından uğurla çıxan "Akademik Həsən Əliyev" gəmi-bərəsi yenidən istismara qaytarılıb.

Uzunluğu 154,5, eni 18,3 metr olan gəmi-bərə ən müasir naviqasiya sisteminə malikdir. Tam yükgötürmə qabiliyyəti 2425 ton olan gəmi-bərəyə eyni vaxtda 28 dəmiryol vaqonu yükləmək mümkündür.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda gəmiçiliyin donanmasında 13 gəmi-bərə, 2 Ro-Ro tipli gəmi var.

İtaliyanın məşhur "Atlantis" jurnalında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında məqalə dərc olunub

İtaliyanın məşhur "Atlantis" jurnalının "Country Focus" bölməsində Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında məqalə dərc olunub.

Ekspert Domeniko Letizia məqalədə Bakı Limanının logistik və əməliyyat imkanları, limanın ölkə iqtisadiyyatına və regionun inkişafına, o cümlədən qeyri-neft sektorunun inkişafına verdiyi töhfə kimi məsələlərə toxunub.

Məqalənin əvvəlində ekspert Prezident İlham Əliyevin Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və ölkə iqtisadiyyatının şaxələndirilməsi haqqında danışıb. Ekspertin sözlərinə görə, yeni Bakı Limanı beynəlxalq nəqliyyat zəncirinin ayrılmaz bir hissəsidir və ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.

Bundan əlavə, D.Letizia Bakı Limanında ən son texnologiyaya uyğun, müasir standartlara cavab verən liman avadanlıqlarının istifadə edilməsi, limanın əməliyyatlarının rəqəmsallaşdırılması, o cümlədən ətraf mühitin qorunması istiqamətində atılan önəmli addımlara da toxunub. Onun sözlərinə görə, yeni Bakı Limanı tam olaraq dünya standartlarına uyğun fəaliyyət göstərir. Bakı Limanının qısa zamanda əldə etdiyi ISO 140001:2005 ətraf mühitin mühafizəsi, ISO 9001:2015 keyfiyyət idarəetmə standartı kimi beynəlxalq sertifikatları vurğulayır. Əlavə olaraq, ekspert Bakı Limanının Xəzər hövzəsində ilk dəfə olaraq Yaşıl Liman statusunu almağa namizədliyi, o cümlədən PERS (Liman Ətraf Mühitinin Dəyərləndirilməsi Sistemi) sertifikatı haqqında danışıb.

Türkiyə istehsalı gəmi texnologiyaları Cənub-Şərqi Asiya ölkələrinə ixrac ediləcək

Türkiyədə hərbi gəmiçilik üzrə fəaliyyət göstərən özəl şirkətlər Malayziya başda olmaqla Cənub-Şərqi Asiya ölkələrinə texnologiya ixrac etməyə hazırlaşır.

Bu barədə müqavilə Malayziyada keçirilən Asiya-Sakit okean bölgəsinin Lankavi Beynəlxalq Dənizçilik və Havaçılıq sərgisində (LİMA2019) Türkiyənin İstanbul Dənizçilik Gəmiinşa Sənayəsi və Ticarəti qurumu ilə Malayziyanın Boustead Lankavi Limanı arasında imzalanıb.

Sənədə əsasən, Malayziyaya, o cümlədən Cənub-Şərqi Asiya ölkələrinə Türkiyədə istehsal olunan gəmiçilik sahəsinə aid avadanlıqlar ixrac ediləcək.

Günel Məlikova

Müsəlmanlara qarşı irqçi aksiyaların sayı artıb

Avstriyada müsəlmanlara qarşı irqçi aksiyalarının sayı ciddi şəkildə artıb. Bu barədə məlumat İslam Düşmənçiliyinə qarşı Sənədləşdirmə və Məsləhət Mərkəzi məlumat yayıb.

Mərkəzin 2018-ci ilin yekunlarına dair hazırladığı hesabatda Avstriyada yaşayan müsəlmanlara qarşı 540 irqçi aksiyanın qeydə alındığı göstərilib. Hesabat müəllifləri təqdimat zamanı bildiriblər ki, 2017-ci ildə vətəndaşlar tərəfindən bu mərkəzə 309 hal üzrə məlumat daxil olduğu halda, 2018-ci ildə bu göstərici ciddi şəkildə artıb. Müsəlmanlara qarşı irqçi aksiyaların təxminən yarısı (46 faiz) nifrət təbliğatı və arzuolunmaz ifadələrin işlədilməsi olub, 89 halda isə (17 faiz) divarlara yazılan nifrət mesajları barədə məlumat əldə edilib. Ümumilikdə götürdükdə isə irqçi aksiyaların yarıdan çoxu (53 faiz) internetdə, 31 faizi isə ictimai məkanlarda baş verib. Həm miqrantların sayı çox olduğuna və həm də mərkəz Vyanada yerləşdiyinə görə, irqçi aksiyaların mütləq əksəriyyəti bu şəhərdə qeydə alınıb.

Hesabatın hazırlanmasında iştirak edən həmin ictimai təşkilatın əməkdaşı Elif Adam təqdimat zamanı bildirib ki, hökumət və media müsəlmanlara qarşı təzyiq və irqçi aksiyaların çoxalmasında da ittiham edilməlidir. Müsəlman məscid və uşaq bağçalarına, dini etiqad mərkəzlərinə qarşı sərt mövqe nümayiş etdirən hazırkı hökumət və bunu tirajlayan mətbuat sosial media və ictimaiyyətdə müsəlmanlara qarşı aksiyaların sayı artır. Bu isə ilk növbədə sağçı-radikal siyasi blokun işinə yarayır, müsəlman və miqrant mövzuları ilə seçicilərin diqqətini ölkənin problemlərinə deyil, qorxu stereotiplərinə yönəldir.

Rəsmi qurumlar açıqlamalarında rassizm hallarını pisləsələr də, dinc birgəyaşayış üçün tələb olunan maarifləndirici addımlar atılmır.

Elgün Niftəli

Bakı-Tbilisi-Qars dəmir yolu Əfqanıstana multimodal daşımalar üçün geniş imkanlar yaradıb

2019-cu ilin aprelin 3-4-də Vaşinqtonda NATO xarici işlər nazirlərinin növbəti iclası olub

NATO-nun 70-ci ildönümünə həsr olunan iclas çərçivəsində qurumun baş katibi Yens Stoltenberq mətbuata verdiyi açıqlamasında Azərbaycanın Alyansın yaxın tərəfdaşı olduğunu bildirib, ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb.

Baş katib Azərbaycanın NATO-nun rəhbərliyi altında Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini deyib. Y.Stoltenberq 2017-ci ildə fəaliyyətə başlayan Bakı-Tbilisi-Qars dəmir yolunun NATO üzv dövlətləri tərəfindən Əfqanıstana və geriyə daşımalar zamanı istifadə olunduğunu qeyd edərək, bu dəmir yolunun Alyansın "Qətiyyətli Dəstək" missiyasının uğuruna mühüm töhfə verdiyini vurğulayıb.

Qeyd edək ki, Azərbaycan ilə NATO arasında tərəfdaşlığın əsası Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 1994-cü il 4 may tarixində Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədinin imzalanması ilə qoyulub. Azərbaycan SNT proqramının prinsiplərinə əsaslanmaqla, sülhü dəstəkləmə əməliyyatlarında iştirak, meydana gələn təhlükəsizlik təhdidlərinə qarşı mübarizə və əsas vurğusu təhlükəsizlik və müdafiə islahatlarına yönələn geniş spektrli məsələlər üzrə siyasi dialoq və praktiki əməkdaşlıq həyata keçirir.

Azərbaycan Respublikası 2003-cü ildən başlayaraq NATO-nun Əfqanıstanda həyata keçirilən əməliyyatına töhfə verir. Hazırda Azərbaycanın 6 nəfər qərargah zabiti və 2 nəfər hərbi həkim olmaqla 120 nəfərlik heyəti Alyansın Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasının tərkibində xidmət edir.

Azərbaycan NATO-nun Əfqanıstanda sülhü bərqərar etmə səylərinə eyni zamanda hava və quru tranziti, müxtəlif treninqlər, humanitar mina təmizləmə və Əfqan Ordusu üzrə Etimad Fonduna maliyyə töhfələri ilə də dəstək həyata keçirir.

2017-ci ilin oktyabrın 30-da açılışı baş tutan Bakı-Tbilisi-Qars dəmir yolu Əfqanıstana multimodal daşımalar üçün geniş imkanlar yaradıb. Bakı-Tbilisi-Qars dəmir yolu Lapis-Lazuli nəqliyyat dəhlizinin əsas hissəsini təşkil etməklə NATO dövlətlərinin Əfqanıstana fasiləsiz və təhlükəsizlik şəkildə daşımalar həyata keçirməsinə mühüm töhfə verir. Ələtdə yerləşən Yeni Bakı Limanı da bu sahədə imkanları genişləndirir. Uzunmüddətli perspektivdə Azərbaycandan tranzit kimi istifadə NATO-nun Əfqanıstandakı missiyasının təchizatı, habelə Əfqanıstanın davamlı inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edir.

BMT üzən şəhərlər tikməyə çağırıb

Üzən şəhərlər bəşəriyyətə iqlimin dəyişməsi nəticəsində yaranacaq qlobal subasmadan xilas olmaq imkanı verəcək.

TASS informasiya agentliyi xəbər verir ki, bu barədə BMT baş katibinin müavini Amina Məhəmməd sabit inkişaf məqsədləri mövzusuna həsr edilmiş tədbirdə çıxışı zamanı deyib.

"İqlim dəyişiklikləri nəticəsində şəhərlərin su altında qalması riskləri artır. Bəzi məlumatlara görə, Banqkok şəhəri hər il 2 santimetr batır və Siam körfəzində suyun səviyyəsi qalxmağa davam edir. Üzən şəhərlər arsenalımızda yeni alətlərdən biri ola bilər. Onlar sabit inkişaf məqsədləri istiqamətində yeni addım olacaq", - deyə o bildirib.

BMT-nin məlumatına əsasən, əhalisi 300 min nəfərdən yuxarı olan şəhərlərin təxminən 60 faizi yüksək siklon, quraqlıq, daşqın, zəlzələ və vulkan püskürməsi riski qarşısındadır. Artıq belə qurğular bəzi regionlarda istifadə olunur. Məsələn, Sinqapur 1965-ci ildə üzən tikililər vasitəsi ilə öz ərazisini təxminən 25 faiz artırıb.

Dünya əhalisinin üçdə ikisi aclıq təhlükəsinə məruz qalır

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) müharibələr və iqlim dəyişikliyinin səbəb olduğu fəlakətlərə görə 53 ölkədə 113 milyondan çox insanın kəskin aclıqda yaşadığını bildirib.

Təşkilatın FAO-nun ərzaq böhranına dair hazırladığı 2019-cu il qlobal hesabatına görə, dünya əhalisinin üçdə ikisi aclıq təhlükəsinə məruz qalır və onların əksəriyyəti Yəmən, Konqo Demokratik Respublikası, Əfqanıstan və Suriya kimi müharibə ilə üzləşən ölkələrdə yaşayır.

Afrika ölkələri də FAO-ya görə həmin problemdən nisbətsiz bir şəkildə təsirlənir. Qitədəki təxminən 72 milyon insan kəskin aclıqda yaşayır. Hesabata görə, qarşıdurmalar və təhlükəsizlik bunun əsas səbəbləri olsa da, iqtisadi silkələnmə və iqlim dəyişikliyi ilə bağlı quraqlıq və sel kimi faktlar da mühüm dərəcədə təsir göstərir.

FAO-nun fövqəladə hallar üzrə direktoru Dominik Burgeon hesab edir ki, qıtlığın sərhədində olan ölkələrdə əhalinin təxminən 80 faizi əkinçiliklə məşğuldur. O, bu ölkələrin həm təcili humanitar yardıma, həm də kənd təsərrüfatını dəstəkləməyə kömək edən tədbirlərə ehtiyacı olduğunu deyir.

Hesabat qlobal səviyyədə aclıqla əlaqədar çox az yaxşılaşma olduğunu ortaya qoyur. Belə ki, 2017-ci ildə 124 milyon nəfər kəskin aclığa məruz qalmışdı, hesabat həmin rəqəmin az da olsa azaldığını göstərir. Lakin FAO yenə də davam edən böhranları nəzərə almaqla 100 milyon nəfərin aclıqla üzləşdiyinə dair illərdən bəri davam edən vəziyyətin dəyişməsinin mümkünsüz olması barədə xəbərdarlıq edir.

2050-ci ildə planetimizdə 9,7 milyard insan yaşayacaq

Əhalinin sürətlə artması, yaşlı insanların sayındakı çoxalma və urbanizasiya kimi demoqrafik dəyişikliklər ekologiya, iqtisadi və sosial problemləri daha gərginləşdirir, eyni zamanda, yeni imkanlar yaradır.

BMT-nin saytı xəbər verir ki, təşkilatın Nyu-Yorkdakı mənzil qərargahında Əhali və İnkişaf Komissiyasının sessiyası keçirilir. Tədbir iştirakçıları yeni demoqrafik tendensiyaların yaratdığı problemlərin həlli və onların üstünlüklərindən faydalanma məsələlərini müzakirə edirlər.

Komissiyanın hazırkı sessiyası əhali və inkişaf üzrə Qahirə proqramının 25 illiyinə həsr olunub. Həmin proqram dünya ölkələrinin hökumətləri üçün demoqrafik problemlərin həlli istiqamətində yol xəritəsinə çevrilib və onun qəbulundan sonra bu sahədə xeyli irəliləyişə nail olunub.

Sessiya iştirakçılarına müraciət edən BMT Baş katibinin birinci müavini Əminə Məhəmməd qeyd edib ki, son 25 ildə dilənçilik həddində yaşayan insanların sayı xeyli azalıb, ana ölümləri 40 faiz düşüb, insanların ömrü uzanıb.

1994-cü ildən 2019-cu ilədək olan dövrdə 5 yaşınadək uşaqların ölümü halları 54 faiz azalıb. Bütün dünyada orta ömür həddi 1994-cü ildəki 64,9 faizdən 2019-cu ildə 72,3 faizədək artıb. 2030-cu ildə bu göstəricinin daha iki dəfə artması gözlənilir. Bütün dünyada əhalinin rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Əminə Məhəmməd bildirib ki, eyni zamanda, bir çox problemlər həll olunmamış qalır. O, diqqəti qadınların reproduktiv hüquqlarının pozulması, təhsilin keyfiyyətinin aşağı olması məsələlərinə çəkib və qeyd edib ki, hazırkı demoqrafik tendensiyalar ciddi ekoloji, iqtisadi və sosial problemlərə səbəb olur.

Bu gün dünyanın əhalisi 7,7 milyard nəfərə çatıb və bu artım sürətlə davam edir. 2050-ci ildə planetimizdə 9,7 milyard, əsrin sonunda isə 11 milyard insan yaşayacaq.

Əminə Məhəmməd vurğulayıb: "Əhalinin sayının artması və iqtisadi inkişaf istehsalın və istehlakın görünməmiş səviyyələrə çatmasına səbəb olub. Bu isə ətraf mühit üçün çox ciddi problemlər yaradıb". O əlavə edib ki, hələ 25 il əvvəl bu məsələlər Qahirə konfransında müzakirə olunub və iştirakçılar dayanıqlı inkişaf xəttinə keçməyin zəruriliyini vurğulayıblar.

BMT Baş katibinin komissiyanın müzakirəsinə təqdim edilmiş məruzəsində qeyd olunur ki, əhalinin artım tempi onun qocalması, doğum sayının azalması, həmçinin sürətli urbanizasiya ilə müşayiət olunur. Artıq bütün dünyada bir qadına orta hesabla 2,5 uşaq doğumu düşür, 2030-cu ildə isə bu rəqəm 2,4 körpə təşkil edəcək. Proqnozlara görə, 2050-ci ildə əhalinin 70 faizindən çoxu bu göstəricilərin lazımi səviyyədən az olduğu ölkələrdə yaşayacaq.

65 yaşından yuxarı insanlara gəldikdə isə, əhalinin ümumi sayında onların payı getdikcə artır. Hazırda Avropada yaşlı insanlar əhalinin 19, Şimali Amerikada 16 faizini təşkil edirlər. 2050-ci ildə bu göstəricilər müvafiq olaraq 28 və 23 faiz olacaq. Həmin dövrdə Asiya, Latın Amerikası, Karib hövzəsi ölkələrində də yaşlı əhalinin sayının 8 faizdən 18 faizədək artacağı gözlənilir. Bu gün ən gənc əhalinin yaşadığı Afrikada 2050-ci ildə yaşlı insanların sayı 9 faiz olacaq. Artıq dünyada yaşlı insanların 50 faizə yaxını təqaüddən məhrumdur.

Hazırda dünya əhalisinin təqribən 56 faizi şəhərlərdə yaşayır. Gələcəkdə əhalinin artım templəri əsasən şəhər əhalisinin hesabına olacaq. Proqnozlara görə, 2030-cu ildə onlar dünya əhalisinin 60 faizini, 2050-ci ildə isə 68 faizini təşkil edəcək.

BMT Baş katibinin birinci müavini vurğulayıb ki, dünyanın bütün ölkələrinin hökumətləri öz inkişaf proqramlarında demoqrafik və miqrasiya problemlərini nəzərə almalıdırlar. Çünki onlar gələcəkdə əhalinin artmasına və məskunlaşmasına təsir edən ciddi amillər olacaq. Bu problemlər 2030-cu ilədək olan dövrdə dayanıqlı inkişaf Hədəflərinə kömək edə, yaxud əngəl törədə bilərlər.

Əhali və İnkişaf Komissiyası 1946-cı ildə yaradılıb. O, BMT-nin İqtisadi və Sosial Şurasının yardımçı orqanıdır. Qurumun işində 47 BMT-yə üzv dövlət iştirak edir. Komissiyanın 51-ci sessiyası aprelin 5-də başa çatacaq.

Xəzərdə neft platforması vasitəsilə neftin çıxarılması layihəsinin müəllifi barədə veriliş hazırlanıb

Polşanın "Polskie radio 24" kanalında Azərbaycanda fəaliyyət göstərmiş polyaklar barədə veriliş hazırlanıb.

"Cənubi Qafqazda polyak izləri" adlı verilişdə 120 il əvvəl Bakıda neft emalının başlanması ilə bağlı oraya işləməyə gedən polşalı mütəxəssislərdən bəhs olunub.

Mixail Fedusionun verilişində Azərbaycan və dünyada neft emalında inqilab yaradan polşalı mütəxəssis Vitold Zqleniski barədə danışılıb. Bildirilib ki, mühəndis dünyada ilk dəfə olaraq məhz Bakıda dənizdə neft platforması vasitəsilə neftin çıxarılması layihəsinin müəllifidir. Verilişdə, həmçinin Azərbaycanın neft sahəsindəki uğurları və iqtisadi inkişafı ilə bağlı müsbət fikirlər səsləndirilib.

Aygün Əliyeva

Gürcüstanın öz ərazisindən taxıl tranziti qaydalarını dəyişməsi erməniləri daha pis vəziyyətdə qoyub

Gürcüstanın öz ərazisindən taxıl tranziti qaydalarını dəyişməsi erməniləri pis vəziyyətdə qoyub. Yeni qaydalara görə, erməni sahibkarlar qonşu ölkənin ərazisi ilə çəkisi 40 tondan artıq olan yük maşınlarını keçirə bilməyəcəklər.

Un istehsalı ilə məşğul olan erməni sahibkarlar bildiriblər ki, artıq nəqliyyat xərclərinin azaldılması üçün üç qoşqulu treylerlərin 40 tondan artıq taxıl daşıması mümkün olmayacaq. Bu qaydalar 2017-ci ildə qəbul olunsa da, gürcü sərhədçilər onların icrasına cari ilin mart ayının sonunda başlayıblar. Belə ki, erməni sahibkarın taxıl yüklənmiş avtomobili saxlanılıb və külli miqdarda cərimə edilib.

2019-cu il oktyabrın 1-dən isə Gürcüstan hökuməti öz ərazisindən avtomobil yolu ilə taxıl daşınmasını qadağan etməyə hazırlaşır.

Dənizdə qabarma ilə müşayiət olunan tufan böyük daşqınlara səbəb ola bilər

Dənizdə qabarma ilə müşayiət olunan tufan Tokionun sahil rayonlarında böyük daşqınlara səbəb ola bilər ki, bunun da nəticəsində təqribən 2,6 milyon yerli sakinin təxliyəsinə ehtiyac yaranar.

"The Japan Times" qəzetinin yazdığına görə, bu barədə mərkəzi hökumətin və Tokio şəhər administrasiyasının nümayəndələrinin iştirakı ilə keçirilən müxtəlif təbii fəlakətlərin qarşısının alınmasına həsr edilən birgə iclasda məlumat verilib.

Mütəxəssislərin qənaətinə görə, ən təhlükəli təbii fəlakət güclü leysan yağışların Tokio körfəzində böyük qabarma ilə müşayiət olunması nəticəsində baş verə bilər. Bu, Tokio zonasında yerləşən Arakava və Eqoqava çaylarında daşqınlara səbəb ola bilər ki, nəticədə də qismən aşağıda yerləşən geniş rayonlar su altında qalar.

Toplaşma mərkəzlərində xüsusi avadanlığın kifayət qədər olmaması, bu ərazidə yaşayan 2,6 milyon sakinin təxliyəsində də çətinliklər yaradar. Hazırda Tokioda heç bir şəraitdə suyun altında qalmayacaq təqribən 2,1 min xüsusi obyekt var. Həmin obyektlər təqribən 1,5 milyon insanı qəbul etmək iqtidarındadır ki, bunlar da əsasən yaxınlıqda yaşayanlardır.

Bunu nəzərə alan iclas iştirakçıları kütləvi daşqınlar zamanı qalan insanların qonşu prefekturalara köçürülməsi yollarının fövqəladə şəkildə araşdırılmasının vacibliyini qeyd ediblər.

Belə bir təhlükə yalnız Tokio zonasının deyil, eyni zamanda, iqlim dəyişmələri və tufanlar nəticəsində Osaka şəhərinin də böyük daşqınlarla üz-üzə qalacağını deməyə əsas verir. Son 30 ildə qlobal istiləşmə nəticəsində okeanda suyun səviyyəsinin təqribən 7 santimetr qalxdığı bildirilir. Hazırda sahil zonalarını bəndlər və sədlər qorusa da, mütəxəssislərin rəyinə görə, güclü tufan hər şeyi dəyişə bilər.

Vüqar Ağayev

Qırmızı dənizdə tikilən yeni hava limanı 2019-cu ilin iyununda ilk sınaq uçuşlarını qəbul edəcək

Ölkəyə daha çox turistin cəlb edilməsi məqsədilə Misirdə tanınmış Marsa Aləm kurortunun yaxınlığında yeni hava limanı inşa olunur.

Qırmızı dənizdə tikilən yeni hava limanı 2019-cu ilin iyununda ilk sınaq uçuşlarını qəbul edəcək. Hava limanına şərti olaraq "Berenis" adı verilib. Bu layihəyə cəlb olunan sərmayələrin ümumi məbləği 30 milyon dollardır.

Hökumətin hesablamalarına görə, "Berenis" hava limanı həm 150 kilometr məsafədə yerləşən Xurqada, həm də Marsa Aləm hava limanlarının işini yüngülləşdirəcək. Bu, həmçinin turistləri Marsa Aləm kurortunun cənubunda nisbətən daha uzaq məsafələrdə yerləşən istirahət məkanlarına cəlb etməyə töhfə verəcək. Marsa Aləmin cənubundakı kurortlar həm dayvinq və ekoturizm (quşları və delfinləri müşahidə etmək), həm də yaxınlıqdakı adalara və tarixi məkanlara ekskursiya baxımından turistlərin ən çox üz tutduqları ərazilərdir.

Bununla yanaşı, turistlərin təhlükəsizliyinin təmin edilməsi amili də nəzərə alınaraq yeni hava limanı ən müasir avadanlıqla təchiz olunacaq. Ekspertlərin rəyinə görə, uzun müddət təcrid olunmuş Berenis rayonunda toxunulmamış mərcanlarla zəngindir. Misirin bu bölgəni dayvinq turizminin mərkəzinə çevirməsi əraziyə böyük turist axınına səbəb olacaq.

Asya Hacızadə

Göyərtəsində 2 ton heroinin olduğu gəmi həbs edilib

Misirin güc qurumları tərəfindən göyərtəsində 2 ton heroinin olduğu gəmi həbs edilib.

Misirin Daxili İşlər Nazirliyi və Hərbi Dəniz Qüvvələrinin Qırmızı dənizin ərazi sularında aparıdıqları birgə genişmiqyaslı əməliyyat nəticəsində xarici dövlətin bayrağı altında üzən ticarət gəmisi həbs edilib və gəminin göyərtəsindəki 2 tondan artıq heroini və 99 kiloqram metamfetamini ölkəyə keçirməyə cəhd göstərən qaçaqmalçılar saxlanılıb. Bayrağın hansı ölkəyə aid olması barədə məlumat verilmir.

Həbs edilən heyət üzvlərindən biri Misir vətəndaşı, digər 7 nəfər isə müxtəlif dövlətlərin vətəndaşlarıdır. Onların məhz hansı ölkənin vətəndaşları olması barədə məlumat verilmir.

Ən iri mayeləşdirilmiş təbii qaz tankeri inşa olunacaq

Çinin Şanxay şəhərindəki "Hudong-Zhonghua" gəmiqayırma zavodunda dünyanın ən iri mayeləşdirilmiş təbii qaz (LNG) tankeri inşa olunacaq. Bu barədə Şanxayda keçirilən 19-cu beynəlxalq LNG sərgisində məlumat verilib.

Norveçli mütəxəssislərlə birgə inşa olunacaq tanker 270 min kubmetr LNG daşımaq imkanına malik olacaq. Tankerin layihəsi və texniki-iqtisadi əsaslandırması gələn ilin sonuna hazır olacaq. Amma onun nə vaxt istismara veriləcəyi tarix barədə məlumat yoxdur.

Qeyd edək ki, son illər Çində təbii qaz, o cümlədən LNG idxalı sürətlə çoxalır. Ötən il 53 milyon tonu LNG olmaqla, ümumilikdə, 90,385 milyon ton təbii qaz idxal edən Çin bu göstərici ilə Yaponiyanı qabaqlayaraq, dünyada ən böyük "mavi yanacaq" idxalçısına çevrilib. İri tutumlu tankerlərin inşası da ölkənin təbii qaz tələbatına dəstək məqsədi daşıyır.

Hazırda dünyada ən iri LNG tankeri Qətərə məxsus "Mozah"dır. O, 2007-ci ildə istismara verilib və 266 min kubmetr maye qaz tutumuna malikdir.

Şahin Cəfərov

Kamerun gəmisi dəniz quldurlarının hücumuna məruz qalıb

Kamerun gəmisi Nigeriya dəniz quldurları tərəfindən hücuma məruz qalıb, Ukrayna dənizçiləri girov götürülüb.

Bu barədə Dəniz İnformasiya Mərkəzi məlumat yayıb.

Dəniz quldurları gəmidə olan bütün qiymətli malları götürüblər, gəminin 4 heyət üzvünü əsir kimi naməlum istiqamətə aparıblar. Heyət üzvləri arasında ukraynalılar da var. Baş verən hadisə ilə bağlı Ukrayna Xarici İşlər Nazirliyi məlumatlandırılıb.

Onların əsirlikdən azad edilməsi istiqamətində işlər aparılır.

Emil Hüseynli

Dunay çayının dibindən İkinci Dünya müharibəsi dövründən qalan iki bomba çıxarılaraq zərərsiz hala gətirilib

Aprelin 2-də bombaların zərərsizləşdirilməsi üzrə ekspertlər Budapeştin cənubunda, Dunay çayının dibindən İkinci Dünya müharibəsi dövründən qalan iki bombanı çıxararaq zərərsiz hala gətiriblər.

Bu barədə "index.hu" agentliyi xəbər verir.

Əməliyyat başa çatdıqdan sonra yaxınlıqda yerləşən evlərin sakinlərinin öz mənzillərinə qayıtmalarına icazə verilib. Budafoki prefektinin başçısı Peter Domokos ehtiyat tədbirləri çərçivəsində dörd minə yaxın insanın təxliyə edildiyini, M-6 magistralında və yaxın zolaqlardakı dəmir yolu xətlərində hərəkətin dayandırıldığını bildirib. Onun sözlərinə görə, əməliyyatda 900-dən çox insan, o cümlədən polis, hərbi və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə xidmətin, həmçinin hökumət qurumlarının və yerli şuranın əməkdaşları iştirak edib.

Hərəsi bir ton çəkidə Amerika istehsalı olan iki bomba ötən ilin oktyabrında aşkar edilib. Lakin Dunayda suyun səviyyəsinin az olması bu günədək zərərsizləşdirmə əməliyyatını həyata keçirməyə imkan verməyib.

Çin hərbi dəniz qüvvələrinin 70 illik yubileyi münasibətilə parad keçiriləcək

Çin Xalq Azadlıq Ordusunun (ÇXAO) hərbi dəniz qüvvələrinin yaranmasının 70-ci ildönümü münasibətilə aprelin 23-də hərbi dənizçilik paradı keçiriləcək.

Bu barədə Çinin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, aprelin sonlarında hərbi dəniz qüvvələrinin yaranmasının ildönümünə həsr olunan müxtəlif tədbirlər təşkil olunacaq. Çindao sahil şəhərində keçiriləcək həmin tədbirlərdə 60-dan çox ölkənin hərbçilərinin, habelə hərbi gəmilərinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, ÇXAO-nun hərbi dəniz qüvvələri 1949-cu il aprelin 23-də yaradılıb.

YARIZARAFAT, YARIGERÇƏK

Əzrayılın da zayı çıxıb? Elələrini aparır ki...

Hər cür üz olan yerdə düz az olar.

Niyə bəzilərini görəndə yadıma öz bayrağımız yox, ingilis bayrağı düşür?

Vaxt var idi həqiqətlə dünyanın o başına da getmək olurdu. İndi bu başında başını güclə saxlayırsan.

Çox adamı layiq olmadığı ucalıqda gördüm. Hər dəfə də içimdən eyni sual qopdu: "Belələrinin orda nə işi?"

Maaş və mükafat heç kəsin iştahasına görə olmamalıdır.

Ağlamağı özümə yaraşdırmadım, ürəkdən sevinməyə də səbəb olmadı. Beləcə ömür keçdi...

Kiçik, əhəmiyyətsiz saydıqlarımız bəzən böyük faciələrə yol açır.

Mən adam tanıyıram ki, dünən də kişi idi, bu gün də kişidir. Sabah da ən azı, nazlana-nazlana danışmayacaq.

Bir bazara getməkdən, bir də orda-burda bazar adamı kimi danışanlardan zəndeyi-zəhləm gedir.

Yaşamaq istəyən, vaxtı öldürməməlidir.

Kişilər qadınları tez sevir və çox gec dərk edirlər.

Sözün düzü keçməyən yerdə vay düzün halına.

Bəziləri elə bilir ki, insan ancaq banka olan borcunu ödəməlidir.

Deyirlər hər kəs bacardığı işi görməlidir.

Yalnız keyfiyyətə üstünlük versən, tək qalarsan.

Ölümün də gözəlini istəyirəm.

Nə qədər ki, hər şeyin yaxşı olacağını düşünürsən, çox şey yaxşı olacaq.

Həmişə güvənə biləcəyin yeganə adam özünsən.

Bəzi adamların Allaha da minnətdarlıq etməyə vaxtı yoxdur?

Yaramazların yalqız qalmaq ehtimalı yoxdur. Dünya yaramazlarla doludur.

Son vaxtlar başım tez-tez ağrıyır. Yaşın ağrılarına oxşamır.

Saman altdan bir gündə ən çox nə qədər su yeritmək olar?

O gün biri deyirdi ki, "ölmədim, bu günü də gördüm." O gün nə gün idi ki?

Görəsən nə vururlar ki, bəzilərinin üzü hər şey götürür?

Bu nə istiqamətlərdir belə: "Yalana doğru!", "Yamana doğru!"... İmana doğru yoxdur?

Göydən ancaq yağış-qar yağırsa, başına daş düşəsi adamların başına çətin daş düşə.

Saxlamaqla bağlı o qədər öhdəliyim var ki... Elə ona görə, kin saxlamağa nə vaxtım, nə həvəsim var.

Çarəsiz olanda Allaha yalvaranlar deməli, o qədər də çarəsiz deyillər.

Lağ eləmə. Ağ eləmə.

Bir ömürdür məndən müvəqqəti narahatlığa görə üzr istəyirlər. Üzr istəməyə ehtiyac yoxdur. Bir ömür nədir ki?

Bəzilərinin üzünə baxıb heç nə soruşmuram. Üzlərindən görünür ki, həmin vəziyyətdir - həmin əziyyət.

Nəzarət və fərasət ayrı-ayrı şeylərdir.

Bəziləri elə bilir ki, təzyiq kimi sevincin də aşağı-yuxarı həddi olmalıdır.

Etiraf edirəm ki, hər şey əvvəllər bildiyim kimi deyil. Məsələn, əvvəllər elə bilirdim ki, yaltaqlıqla çörək yemək olmaz. Bu düşüncəmə görə, indi qarnı tox, boynu yoğun yaltaqların hamısı mənə gülür.

Hər işə "yarayanlar" adətən, heç nəyə yaramırlar.

Hətta dinsiz adam da Allahsız iş görməməlidir.

Rasif TAHİROV

Gəmi təmirçiləri arasında futbol turniri keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Bibiheybət" Gəmi Təmiri Zavoduna daxil olan bölmələrin futbol komandaları arasında keçirilən turnir başa çatıb.

Yarışda ümumilikdə beş – Elektrik-quraşdırma, Tərsanə, Təmizləmə-rəngləmə, Mexaniki-təmir və Gövdə-qaynaq bölmələrinin futbolçuları yüksək yerlər uğrunda mübarizə aparıblar. Təmizləmə-rəngləmə sexinin komandası daha yaxşı oyun nümayiş etdirərək turnirin qalibi olub.

ASCO və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin dəstəklədiyi yarışda qalib komandaya diplom, kubok və medallar təqdim edilib.

Gəmi təmirçilərinin fiziki sağlamlığının möhkəmləndirilməsi, idmana maraqlarının daha da artırılmasına xidmət edən belə idman tədbirlərinin gələcəkdə də keçirilməsi nəzərdə tutulur.

"Səbail" klubunun Futbol Akademiyasına yeni direktor təyin olunub

Futbol akademiyalarının inkişafı prosesində beynəlxalq təcrübəyə malik olan 42 yaşlı Yan Yaap Şmaal "Səbail" klubunun Futbol Akademiyasına yeni direktor təyin olunub.

O, 2002-ci ildən 2005-ci ilədək Qətərin paytaxtı Doha şəhərində fəaliyyət göstərən "ASPİRE" futbol akademiyasının açılışında və inkişafında rol oynamış məşqçi korpusunun üzvü olub.

Beynəlxalq səviyyədə tanınan bu akademiyanın açılışından sonra Qətərin müvafiq yaş qrupuna aid milli komandası ilə işləmiş və eyni zamanda, 2005-ci ildən 2018-ci ilədək "ASPİRE" layihəsi çərçivəsində skaut və analitiklərdən ibarət layihənin yaradılmasında və inkişafında mühüm rol oynayıb.

Beynəlxalq səviyyədə tanınan bu akademiya layihəsi sayəsində Qətərin U-19 yaş qrupuna aid milli komandası Birləşmiş Ərəb Əmirliklərində təşkil olunmuş Asiya çempionatının final mərhələsinə vəsiqə qazanıb.

Yan Yaap Şmaal Qətərə gəlməzdən əvvəl Hollandiyanın "Qroningen" klubunun gənclərdən ibarət komandaları ilə işləyib və ABŞ-ın müvafiq yaş qrupuna aid komandaları üçün gənc futbolçular yetişdirib.

2018-ci ildə Yan Yap Şmaal Asiya Futbol Konfederasiyasının Pro Lisenziya kurslarını bitirib, eyni zamanda, UEFA-nın "A" kateqoriyalı məşqçi lisenziyasına malikdir.

Karateçilərimiz Avropa çempionatını bir qızıl, bir gümüş və iki bürünc medalla başa vurublar

Karate üzrə Azərbaycan milli komandası İspaniyanın Qvadalaxara şəhərində keçirilən Avropa çempionatını bir qızıl, bir gümüş və iki bürünc medalla başa vurub.

Azərbaycan Milli Karate Federasiyasından bildiriblər ki, parakarate yarışlarında gözdən əlil idmançılar kateqoriyasında Sahib Əhədov Avropa çempionu adını qazanıb. Fərdi kumite yarışlarında Rafael Ağayev (75 kq) gümüş, Asiman Qurbanlı (+84 kq) isə bürünc medallara sahib olublar. Millimizin aktivinə növbəti bürünc medalı Roman Heydərov (kata) yazdırıb.

İdmançılarımızdan Nuranə Əliyeva (50 kq), İsmayıl Quliyev, Tural Balcanlı və Rövşən Əliyevdən ibarət kata komandamız

bürünc medal uğrunda görüşdə qələbəni əldən verib. Rafiz Həsənov (67 kq) və Ayxan Mamayev (84 kq) təsəlliverici döyüşlərə qatılsalar da, mükafatçılar arasına düşə bilməyiblər.

Bu yarışda mərhələ adlayan idmançılarımız dünya reytinq cədvəli ilə yanaşı, II Avropa və XXXII Yay Olimpiya Oyunlarına lisenziyalar üçün reytinq xallarını artırıblar. "Minsk 2019"a vəsiqə qazanan karateçilərin siyahısı yaxın günlərdə açıqlanacaq. Böyüklərin 54-cü Avropa çempionatında 51 ölkədən 508 idmançı iştirak edib. Azərbaycan medal qazanan 26 ölkə arasında onuncu yeri tutub.

Qitə çempionatının sonunda təşkilatçı ölkə kimi İspaniya Karate Federasiyasının prezidenti Antonio Marquenyo və Avropa Karate Federasiyasının (EKF) birinci vitse-prezidenti Jiri Bocek, EKF-in bayrağını 2020-ci ildə 55-ci Avropa çempionatının keçiriləcəyi Azərbaycanın nümayəndə heyətinə təqdim ediblər.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti və EKF-in icraiyyə komitəsinin üzvü Yaşar Bəşirov mərasimdə EKF-in bayrağını qəbul edib.

Xatırladaq ki, növbəti qitə çempionatı gələn ilin martında Bakıda təşkil olunacaq.

Boks üzrə Azərbaycan millisi beynəlxalq turnirdə altı medala sahib olub

Xarkovda Sergey Danilçenkonun şərəfinə yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib.

Azərbaycan Boks Federasiyasından bildiriblər ki, yeddi ölkənin təmsil olunduğu yarışı komandamız 6 medalla başa vurub.

Turnirdə 46 kiloqram çəki dərəcəsində mübarizə aparan Nicat Hüseynov qızıl medala sahib olub. O, finalda ukraynalı Boqdan Roqoznıya 5:0 hesabı ilə qalib gəlib. Zaur Qəhrəmanov (48 kq) həlledici görüşdə Dmitri Molodana (Ukrayna) 2:3 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənməli olub. Digər boksçularımızdan Əli Ələsgərli (52 kq), Turğay Mirzəyev (57 kq), Rəmiş Cəfərov (75 kq) və Cəfər Heydərli (80 kq) yarışda üçüncü pillədə qərarlaşıblar.

Bakı bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək

Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra – sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Qeyd edək ki, dünya çempionatı "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

Komandamız "Böyük İpək Yolu" beynəlxalq boks turnirində birinci yeri tutub

Bakıda "Böyük İpək Yolu" beynəlxalq boks turniri keçirilib.

Komandamız turnirdə 4 qızıl, 3 gümüş və 8 bürünc medal qazanıb. Yığmamızın heyətində Məsud Yusifzadə (52 kq), Tayfur Əliyev (56 kq), Kamran Şahsuvarlı (75 kq) və Rauf Rəhimov (81 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yalnız finalda uduzan Amin Kuşkov (75 kq), Alfonso Dominqes (81 kq) və Rahil Məmmədli (91 kq) gümüş medala yiyələniblər. Elvin Məmişzadə (52 kq), Qoşqar Səfərli (56 kq), Cavid Çələbiyev, Ruslan Rüstəmov (hər ikisi 60 kq), Fərid Ağamoğlanov (64 kq), Cəbrayıl Yelekov (81 kq), İsmayıl Yaqubov (91 kq), Sadiq Səmədov (+91 kq) isə bürünc medalla kifayətlənib-lər.

Bu nəticə ilə komandamız ümumi hesabda birinci yeri tutub. İkinci pillədə Özbəkistan (3 qızıl, 2 gümüş, 3 bürünc medal), üçüncü yerdə isə Qazaxıstan (1 qızıl, 5 gümüş, 2 bürünc medal) yığmaları qərarlaşıb. Kamran Şahsuvarlı yarışın ən texnikalı boksçusu kimi təltif edilib.

Mükafatlandırma mərasimində Azərbaycan Boks Federasiyasının I vitse-prezidenti Ağacan Abıyevə Özbəkistan Boks Federasiyasının xüsusi hədiyyəsi təqdim olunub.

Qeyd edək ki, ənənəvi turnirdə Azərbaycan boksçuları ilə yanaşı, Rusiya, Qazaxıstan, Özbəkistan, Mərakeş, İraq, Türkiyə, Türkmənistan və Gürcüstan komandaları da mübarizə aparıblar.

Ən çox qazanan futbolçular

İspaniyanın "Barselona" futbol klubunun hücumçusu Lionel Messi cari mövsümdə ən çox gəlir əldə edən futbolçu olub.

"France Football" nəşri xəbər verir ki, argentinalı hücumçu cari mövsümdə 130 milyon avro qazanıb. İkinci pillədə portuqaliyalı hücumçu Kriştiano Ronaldo qərarlaşıb. "Yuventus"da forma geyən futbolçunun il ərzində qazancı 113 milyon avro təşkil edib. Fransanın "Paris Sen-Jermen" klubunun braziliyalı hücumçusu Neymar isə cari mövsümdə 91 milyon avro gəlirlə üçüncü olub. İlk beşliyi "Atletiko Madrid"in hücumçusu Antuan Qrizman (44 milyon avro) və "Real Madrid"in futbolçusu Qaret Beyl (40,2 milyon avro) tamamlayıblar.

Cari mövsümdə ən çox gəlir əldə edən baş məşqçi isə Dieqo Simeone olub. "Atletiko Madrid"in argentinalı baş məşqçisi 2018-2019-cu il mövsümündə 41 milyon avro gəlir əldə edib.

Qarışıq döyüş növlərinin (MMA) UFC 229 kateqoriyası üzrə ən güclü idmançısı döyüş planını təsdiqləyib



Qarışıq döyüş növlərinin (MMA) UFC 229 kateqoriyası üzrə ən güclü idmançılardan olan rusiyalı Həbib Nurmaqomedov bu ilin sentyabrında döyüş planını təsdiqləyib.

TASS informasiya agentliyi xəbər verir ki, döyüşçü tələbələrlə görüşdə sentyabrın 7-də və dekabrın 28-də döyüşlər keçirəcəyini bildirib. Bundan əvvəl UFC prezidenti Dana Uayt da H. Nurmaqomedovun növbəti döyüşünün sentyabra planlaşdırıldığını vurğulayıb.

H.Nurmaqomedov qeyd edib ki, müəyyən çətinliklər var və hələlik danışıqlar davam edir: "Mənə görə diskvalifikasiya edilən Zubayra (Tuxuqov) və Abubakarın (Nurmaqomedov) sentyabrda mübarizə apara bilməmələri mənim qayıtmağıma mane olur. Mən əvvəlcə onların qayıtmasını istəyirəm. Məni öz fikrimdən daşındırmaq üçün daha çox pul təklif edirlər".

Xatırladaq ki, H.Nurmaqomedov oktyabrın 7-də irlandiyalı Konor Makqreqoru məğlub edərək çempionluq kəmərini qoruyub. İrlandiyalı ilə qarşılaşmadan sonra rusiyalı döyüşçü dava hadisəsinə görə 9 ay müddətinə diskvalifikasiya olunaraq, 500 min dollar cərimə edilib.

Rusiyalı döyüşçü qarışıq döyüş növləri üzrə keçirdiyi 27 qarşılaşmanın hamısında qalib gəlib.

Köhnə kitablardakı toz hissəcikləri allergenlərə səbəb olur

Kitablar arasında gün keçirmək çoxlarının sevimli məşğuliyyətidir, hətta köhnə kitabları vərəqləməklə nostalji hisslər yaşayanlar da var. Öz peşələri ilə əlaqədar saatlarla köhnə kitablar və sənədlər arasında axtarış aparanlar, onları vərəqləyənlər də çoxdur. Kitab tozu ən geniş yayılan allergenlərdən biri hesab edilir.

Köhnə kitablarda olan toz hissəcikləri bəzi qrup xəstəliklər, hətta toksik əlamətlərin yaranması ilə nəticələnir, bronxial astma, allergik bronxit, allergik rinit, allergik dəri reaksiyalarının yaranması halları baş

verir və hətta anafilaktik şoka səbəb ola bilir. Kitab mağazasının satıcıları da risk qrupuna daxil olsalar da, yeni çap olunan kitablar az hallarda mənfi simptomların ortaya çıxmasına şərait yaradır. Ümumilikdə isə tozların yaratdığı fəsadlardan daha çox əziyyət çəkənlər arasında gündəlik olaraq köhnə kitab və sənədlərlə təmasda olanlar çoxluq təşkil edir. Lakin onlardan qorunmaq üçün xüsusi maskalar, eləcə də respirator taxaraq və birdəfəlik əlcəklərdən istifadə edərək açıq havada əvvəlcə yüngülcə silkələnməli, sonra nəm əski ilə silinməli və günəş şüaları altında qurudulmalıdır.

Arxiv işçilərinin də respiratordan geniş istifadə edərək həmin kitabları təmizləməsi məsləhət görülür. Köhnə kitablardakı tozlar fəsadlara səbəb olduğundan çalışmaq lazımdır ki, onlar ev şəraitində saxlanılmasın.

Milyonlarla insan izahedilməz təşviş vəziyyətində yaşayır



Hər bir insan öz həyatının bu və digər dövründə streslə qarşılaşır. Bir çoxları stress halını hər gün, xüsusən də işdə və evdə yaşayırlar. Lakin stress və həyəcanlı vəziyyət – bunlar eyni hal deyildir.

Təşviş hissi hər hansı, bəzən hətta izahedilməz və müəyyən edilməyən məsələ üzrə daimi və yüksək narahatlıq kimi xarakterizə olunur. Dünyada təxminən 264 milyon insan (bu, planet əhalisinin 4 faizinə bərabərdir) izahedilməz təşviş vəziyyətində yaşayır.

Təşviş vəziyyətinin orqanizmdə onkoloji xəstəliyin inkişafına şərait yarada bilməsi bir çoxlarını maraqlandıran məsələdir. Bu, mümkündürmü?

Təhlükəli diaqnozun qoyulmasının insanın şüurunda təşviş hissləri yarada biləcəyi birmənalıdır. Lakin bunun əksi mümkündürmü? Bəs daimi narahatlıq xərçəng xəstəliyini yarada bilərmi?

Bu günlərdə Macarıstan Elmlər Akademiyasında keçirilən konfrans bu məsələyə həsr edilib. Bu suala macarıstanlı alimlərin apardıqları tədqiqatlar "hə" cavabı verir.

Eyni zamanda, hər şey o qədər də təzadlı deyil. 2013-cü ildə başlanan və Macarıstanın Ümumi Elmi Kitabxanasının (PLOS) jurnalında dərc edilən tədqiqatların nəticələri göstərib ki, "generalizə olunmuş təşviş pozuntusu" (GAD) diaqnozu qoyulan insanlar arasında ümumi xərçəng riski daha yüksəkdir. 2016-cı ildə Böyük Britaniyada yüz minlərlə qadın üzərində aparılan digər tədqiqatda təşviş pozuntusunun süd vəzisi xərçəngi riskini artırdığı göstərilir.

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ
AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

2019/2020-ci tədris ilində ingilis dilli qruplarda adları aşağıda göstərilən fənləri tədris etmək üçün əməyi saathesabı (yüksək tariflə) ödənilməsi şərtilə professor-müəllim heyətinin (pedaqoji iş təcrübəsi və ingilis dili səviyyəsi yüksək olanlara üstünlük verilir) müqavilə əsasında işə qəbulunu

E L A N E D İ R :

- Azərbaycan tarixi
- Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları
- Fəlsəfə
- İnformatika
- Tərsimi həndəsə və mühəndis qrafikası
- Materialşünaslıq və materiallar texnologiyası
- Gəmi elektrik avadanlıqları
- Tətbiqi mexanika
- Gəmi quruluşu və nəzəriyyəsi
- Dəniz naviqasiyasının texniki vasitələri
- Mülki müdafiə
- Dənizdə həyat fəaliyyətinin təhlükəsizliyi və dəniz mühitinin qorunması
- İngilis dili
- Riyaziyyat
- Kimya
- Fizika

Sənədlər iyunun 15-dək ADDA-nın Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən əsas binasında qəbul edilir.

Əlaqə telefonu: 498-56-32
REKTORLUQ

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi KSƏTƏMM departamentinin aparıcı mühəndisi

Sabir KƏRİMZADƏNİN

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1241